www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-10 iyul 2016-cı il Çərşənbə № 147 (6468) Qiyməti 60 qəpik

**Ramazan bayramınız mübarək!**

## Gündəm

### ABŞ Konqresində sanksiyalar yenidən gündəmdə



YAP-çı deputatdan və hüquq-müdafiəçisindən ittihamlara cavab; Smitin məsələni Tiflisdə qaldırmasının arxasında Vaşinqtonun planı dayanır?

yazısı səh.6-da

### Beynəlxalq Böhran Qrupundan müharibə xəbərdarlığı

yazısı səh.11-də

### Nikahöncəsi müayinənin aylıq dəhşət statistikası - 12 SPİD...

yazısı səh.7-də

### İstanbul terrorunda vətəndaşımız saxlanıldı-Azərbaycan nə etməli?

yazısı səh.10-da

*Hacı İlqar İbrahimoğlu:*

### "İnsanlar narahatdır ki, birdən uşaqları zombiləşər"

yazısı səh. 8 və 9-da

### İmtahanlarda ana dili və riyaziyyat biabırçılığı-səbəb

yazısı səh.13-də

### Bu gecə "Avro-2016" da ilk yarimfinaldır

yazısı səh.15-də

### Rusiyanın Qarabağ şərti - 5 rayon əvəzinə Azərbaycan

yazısı səh.5-də

### DYP-dən bayram günlərində yola çıxanlara xəbərdarlıq

yazısı səh.14-də

### Gürcüstan azərbaycanlıları gömrükdən güzəşt istəyir

yazısı səh.12-də

## Danışıqlar üzərindəki sirr pərdəsi açılır

# KREMLİN QARABAĞ PLANINDA MÜHÜM DETAL - PROSESƏ TÜRKİYƏ DƏ QOŞULUR!

Sergey Lavrovun İrəvan səfəri ilə bağlı ilginc nüanslar var; işğalçı tərəf Türkiyə amilinin məsələyə artan təsirindən narahatdır; **erməni politoloq:** "Biz yenə rus çəkici ilə türk zindanı arasında qalacağıq, Moskva İrəvanla bundan sonra daha az hesablaşacaq..."




yazısı səh.3-də

# Akif Çovdarovun həbsdən xilası "xəstəlik buketi"nə bağlandı

MTN generalı gecələr yata bilmir; dəhşətli ağrılar onun yuxusunu ərşə çəkib

yazısı səh.4-də



### Poroşenko Bakıda anti-Rusiya bəyanatları verə bilər

yazısı səh.6-da



### "Bank Standard" Heydər Babayevdən qeyri-standart alınır

yazısı səh.6-da



### Mübariz Mənsimovun hədələrinə YAP-dan cavab gəldi

yazısı səh.4-də

6-10 iyul 2016



## Prezident dini qurumlara maliyyə yardımı ayırdı

**Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 250,0 (iki yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 250,0 (iki yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 100,0 (yüz) min manat, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna 100,0 (yüz) min manat və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasına 100,0 (yüz) min manat ayrılıb.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## Maşallah Əhmədovun ev dustaqlığının müddəti uzadılıb

**İyulun 5-də Binəqədi Rayon Məhkəməsində dələduzluqda təqsirləndirilən keçmiş futbolçu Maşallah Əhmədov barəsində seçilmiş ev dustaqlığının müddətinin uzadılması ilə bağlı istintaq orqanının verdiyi təqdimata baxılıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, keçmiş futbolçunun barəsində seçilmiş ev dustaqlığı daha iki ay müddətinə artırılıb.

Qeyd edək ki, M.Əhmədov 2015-ci il dekabr ayının 14-də Binəqədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. İlkin məlumata görə, bizneslə məşğul olan "Neftçi"nin keçmiş futbolçusu Bakıda bir neçə nəfərə 150 min manatdan artıq dəyərdə xaricdən daş plitə gətirəcəyini vəd edib. Lakin M.Əhmədov sözünə əməl etməyib, həmin şəxslərin pulunu da qaytarmayıb.

Dekabrın 16-da Binəqədi Rayon Məhkəməsində M.Əhmədov barəsində üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Qərardan narazı qalan veteran futbolçu apelyasiya şikayəti ilə Bakı Apelyasiya Məhkəməsinə müraciət edib. Lakin apelyasiya şikayəti təmin edilməyib.

Dekabrın 30-da isə Binəqədi Rayon Məhkəməsi M.Əhmədov barəsində seçilmiş həbs-qətimkan tədbirini ləğv edib. Tanınmış futbolçu ev dustaqlığına buraxılıb.

Xatırladaq ki, Azərbaycan futbolunun ən güclü hücumçularından olan M.Əhmədov 1959-cu ildə Gəncədə anadan olub. O, 1977-ci ildən "Neftçi" klubunda oynayıb. M.Əhmədov 1995-ci ildə əsas milli komandada məşqçi, U-21-də isə baş məşqçi funksiyasını yerinə yetirib. O, 2008-ci ilin dekabrından etibarən İsgəndər Cavadovun rəhbərlik etdiyi Azərbaycan Regional Futbol Federasiyaları Assosiasiyasının vitse-prezidentidir.

## SOCAR-ın köhnə binası kimə veriləcək?

**Bu ilin mayında açılışı olan Dövlət Neft Şirkətinin (SOCAR) yeni inzibati binası hələ istifadəyə verilməyib.**

Bu barədə SOCAR-ın mətbuat xidmətinin rəhbəri Nizaməddin Quliyev "Qafqazinfo"nun sorğusuna cavab olaraq deyib.

Onun sözlərinə görə, şirkət heyəti hələ ki yeni binaya köçürülməyib.

Onu da qeyd edək ki, tarixi memarlıq abidəsi olan SOCAR-ın köhnə binasının boşaldıldıqdan sonra təyinatı narahatlıq doğuran məsələlərdəndir. N.Quliyev bildirib ki, ARDNŞ böyük şirkətdir və bütün qurumların yeni binaya köçürülməsindən söhbət gedə bilməz: "SOCAR böyük şirkətdir, kifayət qədər təşkilatı var. Baş ofis köçəndən sonra köhnə bina SOCAR-ın tələbatına uyğun istifadə ediləcək".

Xatırladaq ki, SOCAR-ın yeni binası Cənubi Koreyanın "Heerim Architects & Planners Co. Ltd" şirkəti tərəfindən təqdim olunan "külək-alov" konsepsiyası əsasında inşa olunub.

## Kadırov "çeçen terrorçuları" Türkiyədən geri istədi

**«Biz Türkiyədən "çeçen terrorçuları"nı istəyirik». Virtualaz.org bildirir ki, bunu Çeçenistan lideri Ramzan Kadırov öz instaqram səhifəsində yazıb. O, Türkiyə-Rusiya münasibətlərinin bərpasından razı qaldığını bildirib:**

"Əgər Türkiyə hökumətinə "terrorçular" haqqında informasiya lazımdırsa, mən onların adlarını yenidən sadalayıram: Tarxan Qaziyev, Əhməd Ömərov, Əhməd Patayev, Şirvani Basayev, Maxran Səidov, Rizvan və Üsəma Yaqubovlar, Aslanbek Vadalov, Movsar Çatayev, Hadi Alasxanov, Rüstəm Naurbayev, eləcə də onların ideoloqu Mövladi Uduqov. Onlar özlərini Türkiyə sahillərində azad hiss edirlər".

Kadırovun sözlərinə görə, o, vaxtilə Ankaranı bu adamlardan gələ biləcək təhlükə barədə məlumatlandırıbmış, lakin qarşı tərəf söz versə də həmin terrorçuları Qroznıya qaytarmayıb.

# Cəbhədə qan töküldü-bir əsgərimiz şəhid oldu

**Düşmənin dövlət sərhədimizdə təxribatı nəticəsində Azərbaycan əsgəri şəhid olub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, son üçtərəfli danışıqlarda əldə edilən razılaşmaya baxmayaraq, düşmən tərəf atəşkəs rejimini pozaraq Azərbaycan-Ermənistan dövlət sərhədində növbəti dəfə təxribat törədib. İyulun 5-də saat 12:30-da düşmən tərəfinin snayper atəşi nəticəsində hərbi qulluqçumuz əsgər Əliyev Vüsal Əmir oğlu şəhid olub. Müdafiə Nazirliyi bildirir ki, düşmən təxribatlarının nəticələrinə görə bütün məsuliyyət Ermənistanın kriminal hərbi-siyasi rejiminin üzərinə düşür.



Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbir diləyir!

Xatırladaq ki, təxminən iki ay ərzində təmas xəttində əsasən sakitlik hökm sürürdü və heç bir ciddi insident qeydə alınmırdı. Lakin iki aylıq sükutdan sonra Ermənistan ilk qanı tökdü və indi təmas xəttində vəziyyətin necə inkişaf edəcəyini izləmək lazımdır.

## AZAL-dan Ramazan bayramı ilə əlaqədar xüsusi təklif

**AZAL Miles bonus proqramı çərçivəsində "Azərbaycan Hava Yolları"nın (AZAL) reyslərində sərnişinlərə Ramazan bayramı müddətində (6 və 7 iyul) ikiqat səyahət və status balları təqdim olunacaq.**

Bu barədə AZAL-ın mətbuat xidmətindən məlumat verilib. Bildirilir ki, bununla yanaşı, Moskva, İstanbul, Kiyev, Minsk, Sankt-Peterburq, Milan, Paris, Pekin, Praqa və Dubay istiqamətləri üzrə oktyabrın 15-dək olan uçuşlara biznes sinif aviabilet alan AZAL Miles proqramı iştirakçıları 50 faiz daha çox status və səyahət balları qazana biləcəklər:

Bundan əlavə, Moskva, Kiyev, Minsk, Sankt-Peterburq, Paris və Milan kimi şəhərlərə sentyabrın 12-dən dekabrın 10-dək olan uçuş tarixlərinə sentyabrın 15-dək biznes sinif aviabilet alan sərnişinlər güzəşli tariflərdən yararlana bilərlər.

Aviabiletləri şirkətin www.azal.az saytında bronlaşdırmaq və ya AZAL-ın kassalarında, həmçinin aviaşirkətin rəsmi agentliklərində əldə etmək mümkündür.

## Rusiya Xəzərdə hərbi təlimlərə başladı

**Rusiya Hərbi-Dəniz Qüvvələrinin 20-dən çox hərbi və təchizat gəmisi taktiki təlimlərin keçirilməsi məqsədilə dənizə çıxıblar.**

TASS xəbər verir ki, təlimlərdə həmçinin "Tatarıstan" raket gəmisi, "Uqliç" və "Velikiy Ustyuq" kiçik raket gəmiləri, "Volqodonsk" kiçik artilleriya gəmisi, "Stupinets" raket kateri, artilleriya katerləri və digərləri iştirak edir.



## 200 min müsəlman Moskvada bayram namazı qıldı

**Moskvada keçirilən Ramazan bayramında 200 mindən çox insan iştirak edib. Bu barədə "RİA Novosti" məlumat yayıb. Məlumata görə, 200 mindən çox insan bayram tədbirinə qatılıb. Bayram namazından əvvəl müsəlmanlar Moskvadakı Mərkəzi Məscidin önünə toplaşıblar.**

Paytaxt polisləri bayram tədbiri ərəfəsində ictimai asayişi qoruyub saxlamağı bacarıblar.

"Paytaxtın yeddi ərazisində bu tədbirlər həyata keçirilib. Müsəlmanların ən çox toplaşdığı ərazi isə Vıpolzov döngəsində olub. Orada 90 min insan bayram tədbirinə qatılıb", - məlumatda bildirilib .

Qeyd edək Ramazan bayramı müsəlmanların iki müqəddəs bayramından biridir.

Rusiya prezidenti V.Putin Rusiyada yaşayan müsəlmanları Ramazan bayramı münasibətilə təbrik edib.

## İlahiyyatçının məhkəməsi başlayır

**Gələn həftə Bakı Ağır Cinayətlər Məhkəməsində həbsdə olan ilahiyyatçı, Qafqaz Müsəlmanları İdarəsinin sabiq sektor müdiri Elşən Mustafaoğlunun cinayət işi üzrə məhkəmə istintaqı başlayacaq. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, cinayət işi hakim Səbuhi Hüseynovun icraatındadır. Məhkəmənin hazırlıq iclası iyulun 12-nə təyin edilib.**

Qeyd edək ki, E.Mustafaoğlu 2014-cü ildə həbs olunub. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsinə əsasən təqsirləndirilir.

Xatırladaq ki, E.Mustafaoğlu 2006-2007-ci illərdə İctimai TV-də kanalın ən populyar verilişlərindən olan "Cümə Söhbəti" verilişinin müəllifi və aparıcısı olub. 2007-ci ildə ANS TV-də "Allah Haqqı" verilişinin aparıcısı olub.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## Ramil Usubov İsrail səfirini qəbul edib

**Daxili işlər naziri, general-polkovnik Ramil Usubov iyulun 5-də İsrailin Azərbaycandakı səfiri Don Stavı qəbul edib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, R. Usubov iki xalq arasında əlaqələrin dərin qatlara və qədim tarixə malik olduğunu, dünyada multikultural dəyərlərin hökm sürdüyü ölkə kimi tanınan Azərbaycanda müxtəlif millətlərin, o cümlədən yəhudilərin əsrlər boyu tolerant mühitdə, dostluq və mehribanlıq şəraitində yaşadıqlarını bildirib. Nazir İsrailin aidiyyəti strukturları ilə işgüzar əlaqələrə malik olduqlarını nəzərə çatdırıb, o cümlədən daxili işlər nazirlikləri səviyyəsində bu əlaqələrin genişləndirilməsi məqsədilə "Azərbaycan Respublikasının hökuməti ilə İsrail hökuməti arasında daxili və ictimai təhlükəsizlik məsələlərində əməkdaşlıq haqqında Saziş" layihəsinin hazırlanaraq qarşı tərəfə təqdim olunduğunu deyib.

Səfir isə öz növbəsində bir neçə gün əvvəl qeyd olunan Azərbaycan Polisi Günü və Ramazan bayramı münasibətilə naziri təbrik edib. O, ictimai asayişin, sabitliyin yüksək səviyyədə qorunmasında, ölkə vətəndaşları ilə bərabər əcnəbilərin də təhlükəsizliyinin təmini istiqamətində daxili işlər orqanları əməkdaşlarının böyük əmək sərf etdiklərini, bu gün Azərbaycanın ən təhlükəsiz dövlətlərindən biri olduğunu vurğulayıb. D. Stav ölkədə diplomatik fəaliyyəti müddətində iki dövlətin müvafiq strukturları arasında əməkdaşlığın daha da dərinləşməsi üçün səylərini əsirgəməyəcəyini nəzərə çatdırıb.

## Rusiyada azərbaycanlı iş adamı ölü tapıldı

**Rusiyanın Saratov şəhərində azərbaycanlı iş adamı, Azərbaycanın vilayət üzrə diaspor fəalının qardaşının meyiti tapılıb. Saratov Vilayəti Azərbaycanlıları Konqresinin sədri Vladimir Muradov APA-ya bildirib ki, müavini Məzahir Əliyevin qardaşı, 1956-cı il təvəllüdlü iş adamı Rahib Əliyevin meyiti iyulun 3-də evində asılmış vəziyyətdə aşkarlanıb. İş adamının ölüm səbəbi polis tərəfindən araşdırılır.**

Onun cənazəsi Azərbaycana göndəriləcək doğulduğu Ucar rayonunda ötən gün dəfn olunub.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 147 (6468) 6 iyul 2016

# Danışıqlar üzərindəki sirr pərdəsi açılır



# Kremlin Qarabağ planında mühüm detal - prosesə Türkiyə də qoşulur!

## Sergey Lavrovun İrəvan səfəri ilə bağlı ilginc nüanslar var; işğalçı tərəf Türkiyə amilinin məsələyə artan təsirindən narahatdır; **erməni politoloq:** "Biz yenə rus çəkici ilə türk zindanı arasında qalacağıq, Moskva İrəvanla bundan sonra daha az hesablaşacaq..."

**Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Güney Qafqaz regionuna İrəvandan başlayan səfəri təhlilçilərin diqqət mərkəzindədir. Öncəliklə də Lavrovun Qarabağ mövzusunda apardığı danışıqlarla bağlı gözləntilər maraq kəsb edir. Rusiya diplomatiyasının "ağır topu"nun münaqişəli bölgəyə nə ilə gəlməsi ilə bağlı müxtəlif rəy və fikirlər mövcuddur.**

**"İyulun 4-də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ölkələrinin xarici işlər nazirlərinin İrəvanda keçirilən toplantısı zamanı Sergey Lavrovun erməni tərəfi ilə apardığı danışıqların əsas mövzusu Dağlıq Qarabağ münaqişəsinin həlli olub".** Bu haqda Lavrovu müşayiət edən Rusiya nümayəndə heyətindəki mənbə "İzvestiya" qəzetinə bildirib (Virtualaz.org).

Məlumata görə, Lavrov xarici işlər nazirlərinin toplantısı çərçivəsində erməni tərəfi ilə qeyri-rəsmi görüşlər keçirib. Diplomatik mənbə deyib ki, Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında münaqişənin nizamlanması prosesi olduqca aktiv, ancaq hədsiz tələskənliyə yol verilmədən gedir. **"Rusiyanın mövqeyinə görə münaqişənin elə bir həlli zəruridir ki, bütün iştirakçılar, o cümlədən Dağlıq Qarabağ bu böhrandan maksimum ağrısız çıxa bilsin"** - mənbə bildirib.

Mənbənin dediyinə görə, Rusiyanın tərəflərə təqdim etdiyi həll planda Ermənistanın sərhədlərinin təkcə Azərbaycan tərəfindən deyil, eyni zamanda Türkiyə tərəfindən də açılması nəzərdə tutulub. Planda habelə ağlıq Qarabağ bölgəsini də əhatə etməklə kommunikasiya xətlərinin açılması yer alır.

"İzvestiya" qəzetini məlumatlandıran diplomatik qaynaq onu da deyib ki, Ərdoğanın üzrxahlıq məktubundan sonra Rusiya ilə Türkiyə arasında münasibətlərin normallaşması Dağlıq Qarabağ münaqişəsinin həllinə də müsbət təsir edə bilər.

***

Xatırladaq ki, bugünlərdə Ermənistanda Putinin tərəflərə təqdim etdiyi Qarabağ planının bir çox detalları açıqlanıb. Bu haqda ilk olaraq "Yeni Müsavat" yazıb. Həmin plan münaqişənin mərhələli həllini nəzərdə tutur. Plana görə, Ermənistan Azərbaycanın işğal edilmiş rayonlarından 5-ni azad edir, Dağlıq Qarabağ isə "möhkəm aralıq status"a malik olur. Yekun hüquqi statusun müəyyən edilməsinə dair referendum isə qeyri-müəyyən müddətə saxlanılır.

Əvəzində nə Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması, nə də yaxın gələcəkdə müstəqilliyə malik olması nəzərdə tutulur. Kəlbəcər və Laçın məsələsi də qeyri-müəyyən vaxtadək təxirə salınır. Ancaq Azərbaycan tərəfi bu planla razı deyil və Dağlıq Qarabağın formal da olsa Azərbaycanın tərkibində yer almasında israr edir.

Yəni "Putin planı" və ya "Lavrov planı" adlanan bu model əslində ən çox Rusiyanın maraqlarını ehtiva edir və onun münaqişəyə nəzarət imkanlarını saxlamağa hesablanıb.

***

Erməni tərəfi isə həm bu məqama, həm də Türkiyənin konfliktin həllinə artan təsirinə və sülh prosesinə qoşula biləcəyinə görə narahatdır. Məsələn, İrəvandakı Siyasi və Beynəlxalq Tədqiqatlar Mərkəzinin direktoru Aqasi Yenokyan hesab edir ki, "əgər Rusiya dayandırılmasa və o, tək buraxılsa, o zaman Kreml problemi nə Azərbaycana və Ermənistana, nə də Avropa Birliyinə və ABŞ-a sərf edən formada nizamlayacaq".

Onun sözlərinə görə, hazırda Qərbin səyləri həm də ona yönəlib ki, proses Kremlin maraqlarına xidmət eləməsin. **"Rusiya üçün bu, çox mühümdür, ancaq ona konflikti öz bildiyi kimi həll etməyə imkan verməzlər"** - erməni ekspert deyib.

Türkiyə-Rusiya barışığından sonra Ankaranın Qarabağ sülh danışıqlarına mümkün təsirlərinə gəlincə, Yenokyan narahatlıqla bildirib ki, Moskva-Ankara arasında anlaşma prosesi olduqca dinamik gedir və bundan "yaxşı bir şey gözləməyə dəyməz". **"Biz yenə də rus çəkici ilə türk zindanı arasında qala bilərik və Ermənistana təzyiqlər güclənə bilər. Barışıqdan sonra Moskva İrəvanla daha az hesablaşacaq"** - erməni analitik narahatlıqla qeyd edib.

***

Bu arada Lavrovun Cənubi Qafqaza səfərinin ikinci hissəsi - Azərbaycana səfər belə görünür ləngiməkdədir. Yada salaq ki, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin S.Lavrovun İrəvandan Bakıya gələcəyini bildirmişdilər. Hələ ki səfərin ləngiməsi ilə bağlı rəsmi izahat verilməyib.

Bir şeyi dəqiqliklə yazmaq olar ki, səfər mütləq reallaşacaq. Bunu ən azından, Qarabağ məsələsində son vaxtlar özünü göstərən dinamika və müharibə riskini cilovlamaq imperativi diktə edir.

❑ **Analitik xidmət**

# Ramazanda günaha batanlar: alverçilər bu günlərdə qiyməti niyə qaldırır?

## "Bayram günlərində süni şəkildə qiymətləri artırmaq və insanların istədiyi ərzağı ala bilməməsinə səbəb olmaq günahdır"

**Ənənəvi olaraq hər dəfə bayram günləri ərəfəsində Azərbaycan bazarlarında ərzaq məhsullarının, xüsusilə də meyvə-tərəvəzlərin qiyməti qalxır. Satıcılar tələbatın çox olmasından istifadə edib məhsullarını baha satırlar. Ancaq Ramazan ayının birlik , bərəkət, xeyirxahlıq ayı olduğunu nəzərə alsaq, Fitr bayramının insanların bir-birinə yardım əli uzatma günü olduğunu əsas götürsək, bütün bunların fonunda alverçilərin bazarda qiymətləri artırması cəmiyyətdə birmənalı qarşılanmır.**



**İlahiyyatçı, "Cümə" məscidinin axundu Hacı Surxay Məmmədli** "Yeni Müsavat" a açıqlamasında bildirdi ki, bayram günlərində süni şəkildə qiymətləri artırmaq və insanların istədiyi ərzağı ala bilməməsinə, bazardan ümidsiz qayıtmasına səbəb olmaq günahdır: "Fitr bayramı müsəlmanların günahlarından bağışlandığı müqəddəs bir bayramdır. Bu bayram insanlara sevinc gətirir, xeyir-bərəkət verir. Təəssüflər olsun ki, insanlar bu xeyir-bərəkətdən maddi mənfəət naminə uzaqlaşırlar. Bu onun göstəricisidir ki, insanlar Allaha yaxınlaşmaq fəlsəfəsini unudublar, Allaha yaxınlaşmağı zahirdə təsdiq edirlər, lakin bilmirlər ki, bu bir neçə yolla olur və onlardan biri də insanlara mərhəmətdir. Bayram günlərində bahalaşmaya son qoyulmalıdır. Satıcılar, sahibkarlar insanların, cəmiyyətin maddi vəziyyətini nəzərə almalıdırlar. Bayram günündə insan bazara gedib ərzaq almaq istəyir və qiymətlərin artdığını görəndə onun ruhunda bayram əhval-ruhiyyəsi ölür. Bu, yolverilməzdir və nəticəsi gətirib günaha çıxarır. Bayram günlərində süni şəkildə qiymətlərin qaldırılması dinimizdə də bəyənilmir. Bayram sevindiyimiz zaman deyil, sevindirdiyimiz zaman bayram olur, yediyimiz zaman deyil, yedirdiyimiz zaman, geyindiyimiz zaman deyil, geyindirdiyimiz zaman bayram olur. Əgər bu gün bayram vaxtında bazarlar od tutub yanırsa, qiymətlər süni şəkildə qaldırılıbsa, insanlar bazardan naümid qayıdırlarsa, uşaqlarına bayram günü bir meyvə ala bilmirlərsə, əlbəttə, bu, qiyməti artıranlar üçün günahdır. Əgər bu yolla bir neçə manat artıq qazanırlarsa, bilsinlər ki, bunlar şübhəli pullardır və ona görə Allah qarşısında cavab verəcəklər".

**Məsələyə münasibət bildirən iqtisadçı ekspert Rəşad Həsənov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, burada əsasən tələb və təklif rol oynayır:** "Müəyyən dövrlərdə, bayram günlərində bəzi məhsullara tələbatın artması həmin məhsulların bahalaşmasına gətirib çıxarır. Elə məhsullar da var ki, onlar məhz bayram təyinatlı ərzaqlar hesab olunur. Adətən Ramazan ayı ərzində istehlak olunan bəzi məhsullar var ki, digər aylarda onlara tələbat aşağı düşür. O baxımdan həmin məhsulları ölkəyə gətirənlər həmin ərəfədə malların qiymətini artırmaqla bir qədər artıq gəlir əldə etməyə çalışırlar. Burada heç bir iqtisadi qanunsuzluq yoxdur. Hər bir iqtisadi subyekt öz məhsullarının satış qiymətlərini müəyyənləşdirməkdə sərbəstdir. Bu baxımdan, hansısa dövlət qurumlarının məsələyə müdaxiləsi doğru olmazdı".

**İqtisadçı qeyd etdi ki, əgər hökumət və ya hansısa maraqlı tərəflər bu məhsulların bahalaşmasının qarşısını almaq istəyirsə, bu istiqamətdə təşviqedici addımlar ata bilərlər:** "Məhsulların ölkəyə daha çox gətirilməsini təşviq edə bilərlər, xüsusilə də qeyd etdiyimiz dövrlər ərzində. Məhsulları daha çox idxal etməklə qiymətlərin artmasının qarşısını almaq olar. Digər ölkələrdə də analoji vəziyyət müşahidə olunur, bu, iqtisadiyyatın qanunlarıdır. Ancaq təbii ki, bəzi ölkələrdə ənənələr var. Xüsusilə İslam ölkələrində, məsələn, Türkiyədə dini bayramlar ərəfəsində bəzi məhsulların imkansız insanlar tərəfindən istehlakını gücləndirmək məqsədilə mənəvi bir ənənə olaraq qiymətləri azaldırlar. Və ya hansısa şirkətlər kampaniya təşkil edir və həmin günlərdə qiymətləri aşağı qiymətə təklif edirlər. Azərbaycanda bu günə qədər belə bir yanaşma yoxdur. Sahibkarlar daha çox fərdi maraqlarında çıxış edirlər. Ola bilər ki, bu mənəvi mənada hansısa qınağa tuş gəlsin, ancaq iqtisadi cəhətdən hansısa qınağın ortaya qoyulması doğru olmazdı".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 147 (6468) 6 iyul 2016




# Mübariz Mənsimovun hədələrinə YAP-dan cavab gəldi

**Son günlərdə Türkiyədə yaşayan azərbaycanlı iş adamı, "Palmali" Şirkətlər Qrupunun rəhbəri Mübariz Mənsimov medianın gündəminə gəlib. Yazılar onun müflis olması, İŞİD terror qruplaşması ilə əlaqələrinin olması barədədir. M.Mənsimovun adı İŞİD-lə neft biznesində hallanır. "Mənsimovun vurulması" ətrafında iddialar sırasında məhz sabiq milli-təhlükəsizlik naziri Eldar Mahmudovla əlaqələrinə görə müflisləşdirildiyi deyilir.**

M.Mənsimovun barəsində yayılmış xəbərlərlə bağlı ANS-in Türkiyə bürosuna verdiyi müsahibədə səsləndirdiyi bəzi fikirlər onu yenidən gündəmə gətirib. İş adamı dünyanı bürüyən krizis böhranının şirkətindən yan keçmədiyini təsdiqləyərək, ona və biznesinə qarşı bəzi azərbaycanlı məmurların "qara piar" kampaniyası apardıqlarını bildirib: " Gözəl bilirəm bunlar kimlərdi... Təəssüf ki, onlar çirkin oyunlar oynayır. Amma unutmasınlar ki, bu gün onlar əsassız sözlərlə məni ittiham edirlərsə, sabah mən əlimdə olan beynəlxalq media resurslarla onların çirkin işləri haqqında real sənəd və dəlilləri ortaya çıxara bilərəm. Sözsüz ki, mən belə çirkin oyunlar oynamıram, amma hər şeyin də bir həddi var. Mənim 4 uşağım var və bu gün qızım məndən qara piarda yazılanlar haqqında soruşanda mən məyus oluram, bilmirəm nə cavab verim. Belə vicdansızlıq olmaz".

İŞİD-lə əlaqələrinin olması barədə yayılan xəbərlərə də münasibət bildirən M. Mənsimov bunların cəfəngiyyat olduğunu qeyd edib.

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə "Palmali" rəhbərinin azərbaycanlı məmurlar barədə dediklərinə belə aydınlıq gətirib:** "Mübariz Mənsimov Azərbaycanın xaricdə tanınan nüfuzlu iş adamlarından biridir. Həm biznes fəaliyyəti, həm də ölkəmizin xaricdə təmsilçiliyi baxımından gördüyü işlərin əhəmiyyəti böyükdür. Onun vaxtaşırı vətənpərvər çıxışlarının, addımlarının şahidi oluruq. Onun bir qədər emosional açıqlamasını şəxsi saxlayıram. Hesab edirəm ki, o, öz məsələlərini şəxsi həll etmək və dostları ilə yenidən dost olmaq bacarığındadır. Müəyyən bir müddətdən sonra onun heç bir probleminin olmaması ilə bağlı yəqin ki, açıqlamasını eşidəcəyik. Biz ona uğurlar arzulayırıq. Onun fəaliyyəti Azərbaycan xalqının potensialını göstərir. Ölkəmizə verdiyi töhfələr kifayət qədərdir. Dünya mediasını bu işə cəlb etməklə bağlı fikirlərinə gəlincə, eləcə də, bu medialar vasitəsilə Azərbaycanın təbliği istiqamətində geniş imkanlarının olduğunu nəzərə alaraq, bildirirəm ki, qoy sizin bu yazı ona bir çağırış olsun. Sonuncu bəyanatını emosional olması ilə əlaqələndirirəm. Ona yönəlik İŞİD-lə bağlı ittihamlar çox ciddi ittihamlardır. Belə ittihamları harada gəldi, necə gəldi səsləndirmək düzgün deyil. Əgər səsləndirilirsə, mütləq əsaslandırılmalıdır. İŞİD bu gün dünyanın təhlükəsidir. Bəşəriyyət bundan əziyyət çəkir. İŞİD-ə dəstək vermək qeyri-insanlığa dəstək vermək deməkdir. Bu qədər müsbət işlər görən bir insanın İŞİD-lə əlaqələrinin olması inandırıcı görünmür. Amma istənilən halda, Mübariz Mənsimov nüfuzlu şəxsdir. Bu baxımdan o, öz adını qorumaq iqtidarında olan şəxsdir".



**Aydın Mirzəzadə:** "Qoy sizin bu yazı ona bir çağırış olsun"



**Mehman Əliyev:** "Eldar Mahmudovun çox adamla yaxın əlaqələrinin olması..."

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev iş adamının hədəf seçildiyi ilə bağlı iddialarına belə münasibət bildirib:** "Türkiyə və Rusiya böhran vəziyyətdədirlər. Əlbəttə, bu baxımdan Mənsimovun biznesi də böhran yaşaya bilər. Bu birbaşa ona aid ola bilməz. Kimsə onun haqqında nəsə yaza bilər. Bunların içərisində onun rəqiblərinin də olması mümkündür. Bir-birinə bağlı məsələlərdir. Amma bunları kiminsə etməsini əminliklə söyləmək çətindir. Eldar Mahmudovun çox adamla yaxın əlaqələrinin olması barədə xəbərlər var. Onunla əlaqəsinin olması adı altında hakimiyyət Mənsimovun nəyini vursun? Onsuz da onun biznesinin əsas hissəsi Bakıda deyil. Rusiya, Türkiyə kimi dövlətlərdədir".

❑ **Cavanşir ABBASLI**

# Akif Çovdarovun həbsdən xilası "xəstəlik buketi"nə bağlandı

## MTN generalı gecələr yata bilmir; dəhşətli ağrılar onun yuxusunu ərşə çəkib

**Sahibkarların yuxularını ərşə çəkən MTN generalı Akif Çovdarovun gözünə yuxu getmir. Onun vəkili Sabiq Rəsulov belə deyir. Vəkilin sözlərinə görə, müvəkkilinin həbsdə saxlanılması səhhətindəki problemlərin kəskin şəkil almasına gətirib çıxara bilər. Hələ may ayında, daha dəqiq qeyd etsək, A.Çovdarov tibbi-sanitar hissəyə köçürüləndən 1 gün sonra onun həbsdən qurtulmaq üçün "klassik yol"a baş vurduğunu yazmışdıq. Mayın 21-də "Yeni Müsavat"da "Akif Çovdarov xəstəlik bəhanəsi ilə azad olunur?" http://musavat.com/news/olke/akif-covdarov-xeste-lik-behane-si-ile-azad-olunur_349118.html** sərlövhəli yazı dərc etmişdik. Həmin yazıda A.Çovdarovun çeşidli xəstəlikləri üzərindən törətdikləri əməllərə görə cəzadan yayınmağa çalışdığı qeyd olunurdu.

### 10 il əvvəl Çovdarovun ürəyində əməliyyat aparılıbmış

S.Rəsulov "Hürriyet" qəzetinə bildirib ki, Akif Çovdarov ürəyində olan problemlərlə bağlı 25 aprel 2006-cı ildə Almaniyada "Deustsches Herzzentrum Berlin" Klinikasına müraciət edib. Həmin vaxt A.Çovdarova "Koronar arteriya xəstəliyi, diffuz skleroz 3 damar xəstəliyi, sol arteriya kökünün stenozu və sol tərəfli qidalanma tipi" diaqnozu qoyulub. 1 gün sonra - 26 aprel 2006-cı ildə onun üzərində "Aorta koronar vena şuntlama PLA II və Ramus intermediusa, Arteria mammaria intema - RİVA-ya anostomoz və İntraaortal balon pompası implantasiyası" əməliyyatı keçirilib. Akif Çovdarov klinikada 14 may 2006-cı il tarixədək stasionar müalicə alıb.

### "Mədəsi amputasiya olunduğuna görə..."

**Vəkil A.Çovdarovun xərçəng xəstəliyindən də əziyyət çəkdiyini və mədəsinin əməliyyat yolu ilə çıxarıldığını açıqlayıb:** "2011-ci ilin fevral ayında Almaniya Respublikasının "Vivantes" Klinikasına müraciət edib və ona "C16.0 kardianın bədxassəli törənməsi" diaqnozu qoyulub. 10 fevral 2011-ci il tarixdə "5-399.5 Venoz portun implatasiyası və dəyişdirilməsi, intra-venoz port qoyulması" əməliyyatı keçirilib. 16.05.2011-ci il tarixdə Almaniya Respublikasının "Vivantes" Klinikasında Akif Çovdarovun üzərində 6 saat 46 dəqiqə çəkən "genişləndirilmiş qastrektomiya sistemli limfadenekoektomiya, həmçinin parsial qida borusu rezeksiyası" əməliyyatı nəticəsində mədəsi və bütün limfa vəziləri amputasiya olunub. Mədəsi amputasiya olunduğuna görə qida borusu əməliyyatla birbaşa bağırsağa birləşdirilib".



### Akif Çovdarovla qara dustaq arasında fərq qoyulmur

**Vəkilin sözlərinə görə, müvəkkili hər gün təzə bişirilmiş yeməklər yeməlidir ki, yaşaya bilsin. Lakin həbsə alındığı gündən onunla qara dustaqlar arasında fərq qoyulmadığından Akif Çovdarov belə bir qidalanma rejimindən məhrum olub. Odur ki, bu rejim onun səhhətində kəskin şəkildə özünü büruzə verə bilər. Hər halda vəkil belə deyir:** "Müdafiəçisi olduğum şəxs məhkəmənin qərarına əsasən həbs edilib və o, 15 noyabr 2015-ci il tarixdən hazırkı günədək ilk öncə istintaq təcridxanasında, sonra isə səhhətində yaranmış xəstəliklərlə bağlı İstintaq Təcridxanasının tibb-sanitar hissəsində saxlanılmaqdadır. Hazırda digər saxlanılan şəxslər kimi ona da yalnız həftədə bir dəfə sovqat gətirilməsinə icazə verildiyi üçün ailə üzvləri ona həftəlik yemək gətirirlər. Bir neçə gün qalmış xörəklər isə onun səhhətinin ağırlaşmasına səbəb olur. Müdafiə etdiyim şəxslə Bakı İstintaq Təcridxanasında görüşdüyüm zaman o, döş qəfəsində ağrılardan, halsızlıqdan, baş gicəllənməsindən, ürək döyünməsindən əziyyət çəkdiyini bildirir".

### Çovdarovun ağrıları gecələr şiddətlənir

**S.Rəsulov qeyd edib ki, A.Çovdarovun qəlbində gecələr ağrılar kəskinləşir:** "Müdafiə etdiyim şəxs həbs edildikdən sonra 11-12 fevral 2016-cı il tarixlərdə İstintaq Təcridxanasının tibb-sanitar hissəsində Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Kardiologiya İnstitutunun əməkdaşları tərəfindən "EKQ-nin Holter monitorinqi və arterial təzyiqin sutkalıq monitorinqi"nə dair müayinələrindən keçirilib və aparılan müayinələr nəticəsində əməkdaşlar tərəfindən konsiliumun nəticəsi olaraq ona "Ürəyin işemik xəstəliyi. Aorta-karonar, şuntlama əməliyyatından sonrakı vəziyyət (T82.2). Səyrici aritmiya, taxsistolik forma (İ49.0)" diaqnozu qoyulub. EKQ-nın Sutkalıq Holter monitorlanmasına dair 11-12 fevral 2016-cı il tarixlərə aid Protokolunda monitorinq dövründə səyrici aritmiya (taxisistolik forma) qeyd olunmuş, pauzaların (I-lər) cəmi 31 olduğu və ən çox gecə saatlarında baş verdiyi göstərilir".

### Mus, Mus, Mustafa... - həyatı riski olduğuna görə cəza çəkməkdən azad edilməlidir!

**Vəkil A.Çovdarovun çoxsaylı xəstəliklərini sadalayandan sonra açıqlamasının mabədinə gəlir və MTN generalının bu qədər xəstəliklə həbsdə saxlanmasının qanunsuz olduğunu diqqətə çatdırır:** "Məhkumların xəstəliyə görə cəza çəkməkdən azad edilmələri üçün əsas olan xəstəliklərin siyahısına əsasən, ürəyin işemik xəstəliyinə və ürəyin ritm pozğunluğu xəstəliyinə düçar olmuş məhkumlar bu xəstəliyin ağrılığı və həyati riski olduğuna görə cəza çəkməkdən azad edilirlər. Lakin müdafiə etdiyim şəxs qanuni qüvvəsini almış məhkəmə hökmü ilə təqsiri sübuta yetirilmədiyi halda həbsdə saxlanılır ki, nəticədə onun xəstəliyini kəskin şəkildə ağırlaşır. Bu isə sonda hətta onun ölümünə belə səbəb ola bilər".

Vəkilin açıqlamasından aydın olur ki, müvəkkili ağır xəstədir. Yaradan yaratdıqlarının hər biri kimi ona da yardımçı olsun. Amma A.Çovdarovun ağır xəstəlikləri çox olduğu kimi qanunsuz əməlləri də az deyil. İllərlə törədilən və hesab-kitabsızlığı üzündən hər dəfə daha da ağırlaşan həmin əməllərə görə cavab verməmək zamanıdır.

Xatırladaq ki, A.Çovdarov 2015-ci il noyabrın 14-də həbs olunub. 2015-ci il noyabrın 15-də Səbayel Rayon Məhkəməsinin qərarı ilə A.Çovdarov barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. A.Çovdarovun barəsində seçilmiş həbs-qətimkan tədbiri 4 ay olmaqla bir neçə dəfə artırılıb.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 147 (6468) 6 iyul 2016

# Rusiyanın Qarabağ şərti - 5 rayon əvəzinə Azərbaycan

## Moskva danışıqlarda ikibaşlı oyununu davam etdirir; təhlilçilər Rusiyanın təkliflərini Bakı üçün də təhlükəli sayır...

**Prezidentlərin Vyana görüşünün ardınca baş tutan Sankt-Peterburq görüşündə Qarabağa dair konkret təkliflərin müzakirə edildiyi, hətta işğal altındakı 5 rayonun azad edilməsi istiqamətində müzakirələrin aparıldığı barədə ilkin məlumatlar yayılsa da, hələlik vasitəçi tərəfdən hər hansı rəsmi təsdiq gəlməyib. Növbəti görüşlərin Fransa və ABŞ-da keçirilməsi barədə ümumi razılaşmaların olduğunu nəzərə alsaq, deyə bilərik ki, Qarabağla bağlı bir zamanlar mövcud olan ziddiyyətli yanaşmalar aradan qaldırılıb və ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri arasında ümumi anlaşma mövcuddur.**



İstənilən halda Vaşinqton və Paris Qarabağda atəşi kəsməyə nail olan Rusiyanın bu hərəkətini təqdir edir və hətta ATƏT-ə sədrlik edən Almaniyanın rəhbərliyi də Kremlin Qarabağ məsələsinin həllində "açar" rolunu oynaya biləcək ünvan kimi nişan verirsə, demək, ümumi anlaşma mövcuddur. İndi qalır Rusiyanın ortaya ədalətli mövqe qoyaraq bölgədə sülhə nail olmaqla bağlı prinsipial addımlar atması.

Ancaq müşahidələr göstərir ki, Kremlin əsas hədəfi Azərbaycan ərazilərinin işğaldan azad edilməsi deyil, hətta bununla bağlı müəyyən addımlar atacağı halda Bakıdan nələrisə qoparmaqdır. Hansı ki, xarici işlər naziri Sergey Lavrov da bir müddət öncə Azərbaycanın Gömrük İttifaqına və Avrasiya İqtisadi Birliyinə qoşulmasını istədikləri barədə eyham vurmuşdu. Rusiya ən azı öz hərbi birləşmələrini "sülhməramlı" adı altında münaqişə zonasına yerləşdirmək istəyir ki, bu da Azərbaycan üçün Qarabağın birdəfəlik itirilməsi anlamına gəlir. Çünki ortada Gürcüstandakı münaqişə zonalarının acı taleyi var.

Digər tərəfdən, Rusiyanın bir sıra davranışları onun "sülhpərvərliyinə" dəlalət etmir. Bu sırada Rusiyanın işğalçı Ermənistanda hərbi təlimlərə başlaması, həmçinin Xəzərdəki hərbi donanmanın təlimlərinə start verməsi dolayısı ilə Azərbaycana da təhdid hesab olunur. Üstəlik, Ermənistandakı Rusiya hərbi bazasının snayper atıcı bölüyünün 100-dən artıq hərbçisi "Kamxud" yüksək dağlıq poliqonunda hərbi təlimlərə başlayıb ki, bu da ölkəmizə yaxşı perspektiv vəd etmir. Hərbi təlimlərdə işğalçı ölkənin hərbçilərinin olmadığını demək mümkün deyil.

Müşahidələr onu deyir ki, Rusiya daha çox münaqişənin dondurulmuş saxlanılmasına çalışır, nəinki onu həll etməyə. Ermənilər isə hansısa variantın masa üzərində olduğundan narahatdır. Ancaq məlumdur ki, Rusiya bircə kəndin belə şərtsiz qaytarılmasına razılaşmaz. Bu mənada Rusiyanın ölkəmizdən Qarabağın əvəzində nələri istədiyi barədə suala cavab axtarmaq lazım gəlir.

**Politoloq Arzu Nağıyev düşünür ki, ən azı Dağlıq Qarabağın ətrafındakı ərazilərin azad olunmasının qarşılığında Rusiyanın Azərbaycandan bir sıra istəklərinin olması mümkündür:** "Buraya həm iqtisadi, həm siyasi, həm də hərbi istiqamətdə istəkləri daxil etmək olar. Yəni böyük layihələrdə təmsilçilik, bir sıra qurumlara üzv olmaq, hərbi cəhətdən suda, havada və quruda iştirak kimi istəklərin olduğunu deyə bilərik. Təbii ki, bunlar hamısı istək kimi də qalacaq. Çünki atılan hər bir addım bizim digər tərəfdaşların mənafeyi ilə uyğunlaşmalıdır. Bunu həm Azərbaycan, həm də Rusiya tərəfi başa düşür. Bundan başqa, bu gün regionda nüfuz sahibi olmaq üçün istər Qərb, istərsə də Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllindən bir siyasi rıçaq kimi istifadə etməyə çalışır. Təbii ki, bu, ən çox Rusiyaya lazımdır. Çünki bu, ən mühüm və demək olar ki, yeganə şansdır".

**A.Nağıyevin fikrincə, KTMT-nin İrəvan bəyanatı da Rusiyanın mövqeyini nümayiş etdirir:** "Məlumdur ki, KTMT-nin üzvləri, o cümlədən Belarus, Qazaxıstan və digərləri də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və son aprel hadisələrində də biz bunun şahidi olduq. İkincisi də danışıqlar ərəfəsində bu, Rusiyanın ilk belə bəyanatlı deyil. Dəfələrlə belə olub, bu da son bəyanat olmayacaq. Biz öz ərazilərimizi müdafiə edirik və məqsədimiz beynəlxalq qanunlar çərçivəsində münaqişəni həll etməkdir, sülhün tərəfdarı olmaqla, buna görə də son variant kimi hərbi yol istisna edilmir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, aprel döyüşləri Dağlıq Qarabağ probleminə baxışı dəyişib:** "İşğalçılar münaqişəni dondurduqları 20 ildə elə bilirdilər ki, Azərbaycan ordusu hərbi əməliyyata başlamayacaq, nə bilim böyük dövlətlər buna imkan verməyəcək, Rusiya seyrçi qalmayacaq və s. Ancaq bu amillərin heç biri Azərbaycan cəmiyyəti üçün əsas deyil. Xalqımızın yeganə vahid istəyi nə yolla olursa-olsun torpaqları azad etməkdir". **Siyasi şərhçi maraqlı bir detala da diqqət çəkdi:** "Bugünlərdə qərbli diplomatlardan biri ilə söhbətdə tərəf müqabilim mənə açıq dedi ki, Azərbaycan xalqında torpaqları geri qaytarmağa olan ruh yüksəkliyinə valeh qalıb. Həmin diplomat Ukraynada da işləyib və dedi ki, Ukrayna orduya könüllü yığmaqda çətinlik çəkərkən, Azərbaycanda aprel ayında hamı döyüşə - ölümə atılırdı. Bunu ermənilər də anlayır. Ona görə zaman onların əleyhinə işləyir. Biz 10 milyonuq, onlar 2 milyon da deyillər. Biz torpaqların azadlığı uğrunda yüzlərlə, minlərlə şəhid verməyə hazırıq, onların isə buna hazır olduqları məndə ciddi şübhə doğurur. Ermənistanın gənc nəsli bizim gənc nəsildən fərqli olaraq onlara aid olmayan torpaqlar uğrunda ölmək istəmirlər".

**E.Şahinoğlu bildirdi ki, Kremlin Dağlıq Qarabağ münaqişəsini ədalətli həll edəcəyini düşünmür:** "Çünki münaqişənin ədalətli həlli Azərbaycanın maraqlarına cavab verir. Kreml isə Azərbaycanı razı salıb, Cənubi Qafqazdakı yeganə strateji müttəfiqi Ermənistanı narazı salmaq istəmir. Kreml orta yol axtarışındadır. Bunu tapmaq isə praktik baxımdan mümkün deyil. Çünki Azərbaycanla Ermənistanın münaqişənin həllinə baxışları 180 dərəcə fərqlənir. Rusiya isə tərəf seçmək istəmir. Hələ ki Moskvanın yeganə istəyi tərəflərin atəşkəsə riayət etmələridir. Bu, Rusiya hakimiyyətinə həm də ona görə lazımdır ki, sakit başla bir neçə ay münaqişə ilə nə edəcəyini rahat düşünsün".

***

Bu arada Rusiya XİN başçısı Sergey Lavrovun İrəvandan Bakıya gələcəyi barədə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Rusiya XİN başçısının müavini Qriqori Karasinin verdiyi məlumatın reallaşmaması, ümumiyyətlə, bu haqda açıqlama verilməməsi qəribə vəziyyət yaradıb. Belə çıxır ki, ya Lavrov Ermənistanı "ram" edə bilməyib, ya da ortaya qoyulan təkliflər Bakını qane etmədiyi üçün görüşə və müzakirələrə ehtiyac qalmayıb.

Ancaq o da mümkündür ki, Rusiya ilkin mərhələdə 5 rayonun geri qaytarılmasının qarşılığında Bakıdan istədiklərini ala bilmir. Çünki Azərbaycanda hər kəs yaxşı anlayır ki, Rusiya Qarabağın bir hissəsini qaytarmaqla Azərbaycanı tamamilə təsir dairəsinə keçirmək, üstəlik, konstitusiyaya zidd olaraq Dağlıq Qarabağda referendum keçirilməsinə nail olmaqla separatçı rejimin "müstəqilliyinə" hüquqi don geyindirmək istəyir. Azərbaycan prezidenti isə dəfələrlə bəyan edib ki, o, ölkə ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək.

❑ **Elşad PAŞASOY**



# NATO-nun Varşava sammitindən Azərbaycanla bağlı əsas gözlənti

## Fərrux Məmmədov: "Rusiya Azərbaycanı itirməmək üçün Qarabağda əməliyyatlara başlaya bilər..."

**İyulun 8-9-u tarixlərində NATO-nun Varşava sammiti keçiriləcək. Rəsmi məlumata görə, sammitdə 18 prezident, 21 hökumət başçısı, 41 xarici işlər naziri və 39 müdafiə naziri iştirak edəcək. Sammit üçün 2103 nəfər, o cümlədən NATO-nun 28 ölkəsindən və 26 tərəfdaş ölkədən 65 nümayəndə heyəti, eləcə də BMT, Avropa İttifaqı, Dünya Bankı və NATO qərargahının nümayəndələri qeydiyyatdan keçib.**

Dövlət və hökumət başçılarının ilk görüşü 8 iyulda yerli vaxtla 15:30-a (Bakı vaxtı ilə 17:30-a) planlaşdırılıb. Həmin görüşdə NATO-nun şərq cinahının möhkəmləndirilməsi ilə bağlı qərarlar qəbul edilə bilər.

Sammitin ikinci günü Əfqanıstanla bağlı diskussiyalar olacaq. Günün ikinci yarısında Avropa Birliyi ilə əməkdaşlıq məsələlərinə baxılacaq. İclasa Avropa Parlamentinin sədri Donald Tusk və Avropa Komisiyasının sədri Jan Klod Yunker qatılacaq. Sammit axşam saat 19.00-da başa çatacaq. Varşavada Əfqanıstanla bağlı müzakirələrin aparılması səbəbindən gözləntilər var ki, sammitdə Azərbaycan prezidenti də iştirak edəcək.

NATO-nun bu sammitindən sonra Qafqazda vəziyyət qarışa bilər. Ekspertlər hesab edirlər ki, hazırda Qara dənizdən rusları çıxarmaq əsas məqsədlər sırasındadır. Qara dənizdə vahid birliklərin də yaradılması gözlənilir.

**Baş verənlərin Azərbaycana necə təsiri barəsində "Yeni Müsavat"a NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov danışıb. O bildirib ki, NATO-nun bu il baş tutacağı sammiti olduqca maraqlı olacaq.**

"Səbəb isə artıq üzvlüyə tam şəkildə hazır olan Gürcüstanın nə zaman Alyansa qəbul ediləcəyi ilə bağlıdır. Rusiya artıq Gürcüstanın Alyansa üzvlüyünün gerçəkləşdiyini görür və Amerika başda olmaqla, NATO-nun özünə də xəbərdarlıq məktubu yollayıb. Rusiya birbaşa və açıq şəkildə NATO-nun genişlənməsinin əleyhinədir. Bu proses, sadəcə, Gürcüstanla kifayətlənmir, Monteneqronu da tezliklə NATO-da üzv dövlətlər sırasında görmək mümkün olacaq. NATO yaxın illərdə üzvlərinin sayını otuza çatdırmaq fikrindədir. Burada ən maraqlı məqam isə Azərbaycanın tutacağı mövqedir. Bəllidir ki, Azərbaycan yenidən "balans rolu"nu oynayacaq. Lakin Əfqanıstan mövzusunda, Xəzərdə təhlükəsizlik məsələlərində balans siyasəti yürütmək mümkün olacaq. Bu baxımdan 2018-ci ildən etibarən tarixi siyasi proseslərin şahidi olacağıq. Azərbaycanda baş tutacaq prezident seçkiləri də bu prosesin tərkib hissəsi olacaq" - qurum rəhbəri deyib.

**Onun sözlərinə görə, Amerika bütünlükdə Cənubi Qafqazın siyasi və iqtisadi vizyonunu dəyişmək qərarını tutub:** "Azərbaycanın həssas siyasi prosesə daxil olacağını deyə bilərik. Təbii ki, Gürcüstanın NATO ittifaqına üzvlüyü Azərbaycana təsirsiz ötüşməyəcək. Çünki artıq Amerika qoşunları demək olar ki, Rusiya ilə bir addımlıqda duracaqlar. İstər-istəməz bu, regionda müəyyən proseslərə də start verilməsinə səbəb olacaq. Rusiya Gürcüstanın ardınca Azərbaycanı da itirməmək üçün Dağlıq Qarabağda əməliyyatlara başlaya bilər. Bunlar hazır masa üzərində olan projelərdir. Lakin Azərbaycan siyasi baxımdan manevrlər edə bilərsə, yaxın gələcəkdə Rusiyanın Cənubi Qafqazda tək hakimliyi erası bitəcək. Putin bunu bilir və ona görə də hazırda Türkiyə ilə yaxınlaşmağa çalışır. Bu prosesdə aktiv olaraq Azərbaycandan istifadə edirlər. Putin anlayır ki, Rusiyanın ətrafı artıq Amerika müttəfiqləri ilə doludur və bir gün bu proses başlayacaq. Nəticədə isə demokratikləşmə Rusiya sərhədlərindən içəriyə də daxil olacaq. Bugünkü Rusiyanın mübarizəsi məhz buna görədir".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 147 (6468) 6 iyul 2016



# ABŞ Konqresində sanksiyalar yenidən gündəmdə

## YAP-çı deputatdan və hüquq-müdafiəçisindən ittihamlara cavab; Smitin məsələni Tiflisdə qaldırmasının arxasında Vaşinqtonun planı dayanır?

**ATƏT Parlament Assambleyasının iki gün öncə Tiflisdə keçirilən sessiyası zamanı Azərbaycanda insan haqlarının vəziyyətinə dair ayrıca dinləmə təşkil olunub. Dinləmədə ABŞ konqresmeni, Azərbaycan hakimiyyətinin təmsilçilərinə və Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan məşhur "Azərbaycan Demokratiya Aktı" adlı qanun layihəsinin müəllifi Kristofer Smit çıxış edib.**

Smit bəyan edib ki, Azərbaycanda repressiyalar dayanmasa, hakimiyyətə qarşı mütləq sanksiyalar tətbiq ediləcək, həm də daha sərt formada: "Bu layihənin əsası olan 4-cü bəndi hökumət rəhbərləri və onların ailələrinin Birləşmiş Ştatlara səfər vizalarının verilməsindən imtina edilməsini təmin edəcək. Bu, siyasi məhbuslara və başqalarına qarşı bu cinayətləri törədən şəxslərə düşünülmüş, məqsədyönlü sanksiyalar istədiyimizi bildirmək üçündür.

Qanunda müddəalar var ki, Azərbaycanda əgər hər şey yaxşılaşsa, sanksiyalar da təbii ki, ləğv olunacaq. Sanksiyalar yalnız hamımızın bildiyi kimi, müsbət nəticə çıxarmaq üçün ağıllı istifadə olunanda əhəmiyyətlidir və biz bunu təmin etməyə çalışacağıq".

Xatırladaq ki, 2015-ci ildə Smitin hazırladığı sanksiya layihəsinin gündəmə gəlməsi böyük ajiotaja, Azərbaycan hakimiyyətinin sərt reaksiyasına və o zamanlar soyuq olan ABŞ-Azərbaycan münasibətlərinin daha da pisləşməsinə səbəb olmuşdu. Qanun layihəsi Konqresə təqdim olunanda əksər siyasətçilər layihənin Konqresin rəsmi gündəliyinə salınacağını və qəbul ediləcəyini qeyd edirdilər. Lakin bu proqnozlar gerçəkləmədi. Rəsmi Bakı ilə Vaşinqton arasında münasibətlər bu ilin əvvəlindən normallaşmağa başladı və Smitin təqdim etdiyi sanksiya layihəsi sanki arxivə göndərildi. Aradan xeyli vaxt keçdikdən sonra Kristofer Smitin ATƏT PA-nın Azərbaycanın qonşuluğunda keçirilən tədbirində "Azərbaycan Demokratiya Aktı" sənədini gündəmə gətirməsi və sanksiyaların qəbul ediləcəyini bəyan etməsi maraq doğurmaya bilməz. Onu da qeyd edək ki, Smitdən bir neçə gün öncə-iyunun 30-da məşhur milyarder filantrop Corc Soros Qərb ölkələrini Azərbaycan hökuməti ilə əməkdaşlığa görə sərt tənqid edib. Corc Soros Azərbaycan hakimiyyətini tənqid edib və ABŞ-ın burada baş verənlərlə bağlı ortaya ciddi mövqe qoymalı olduğunu dilə gətirib, Qərbi Azərbaycan hakimiyyətini dəstəkləməməyə çağırıb.



Kristofer Smit

Bəs nə baş verdi ki, sanksiya məsələsi yenidən gündəmə gətirildi? Bunu ABŞ administrasiyasının mövqeyi olaraq qəbul etmək olarmı?

**YAP-çı deputat Bəxtiyar Sadıqov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, konqresmen Smitin mövqeyi rəsmi Vaşinqtonun mövqeyi deyil:** "Heç kəsə sirr deyil, ermənilər yüz ildən çoxdur ABŞ-da və Avropada güclü diaspora yaradıblar. Onlar öz niyyətlərinə çatmaq üçün dünyanın hər yerində olan müxtəlif siyasətçiləri müxtəlif vasitələrlə ələ alırlar. Konqresmen Kristofer Smit də məhz bu cür siyasətçilərdəndir. Erməni diasporu Smiti ələ alıb və bu adam Azərbaycana qarşı qərəzli, düşmən münasibətdə olan birisidir. Bu, bizim üçün qeyri-adi və yeni bir xəbər deyil. Smitin və Corc Sorosun son günlər səsləndirdikləri fikirlər ABŞ administrasiyasının mövqeyi kimi qəbul edilməməlidir. Azərbaycanla ABŞ arasında son zamanlar münasibətlər müsbətə doğru inkişaf edib, elə bir problemlər yoxdur. Bu ilin aprelində Qarabağ cəbhəsində baş verən hadisələr zamanı ABŞ dövlət katibi Con Kerri açıqlama verdi və həmin açıqlamada Azərbaycanın ərazi bütövlüyünün bərpasının lazım olduğu müəyyən mənada ifadə olunurdu. Azərbaycan prezidenti cənab İlham Əliyev ABŞ-da keçirilən nüvə təhlükəsizliyi konfransına dəvət edildi və prezident ABŞ-da səfərdə oldu, yüksək səviyyədə görüşlər keçirdi. Bu baxımdan, Smit müəllifi olduğu məlum layihəni yenidən gündəmə gətirirsə, bu, ABŞ administrasiyasının həmin layihəni gündəmə gətirməsi demək deyil. Smit, sadəcə, öz arzularını dilə gətirir və onun Azərbaycana sanksiyalar tətbiq edilməsi arzusu gerçəkləşməyəcək".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı da hesab edir ki, K.Smit şəxsi mövqeyini həmişə olduğu kimi yenidən dilə gətirib:** "Belə görünür ki, sanki Smitin ayrı bir dərdi yoxdur. Hər fürsətdə Azərbaycana qarşı sanksiya söhbətini ortaya atır. Ancaq artıq bizdə əminlik yaranıb ki, onun mövqeyi şəxsi münasibətidir və bu səbəbdən də ABŞ-ın mövqeyi kimi heç zaman rəsmiləşmir və rəsmiləşməsi gözlənilmir. Yaxşı olar ki, Smit heç olmasa bircə dəfə Ermənistanın Azərbaycan torpaqlarını zəbt etdiyini dilə gətirsin, bu barədə sənəd hazırlayıb Konqresə təqdim etsin. Azərbaycanda son zamanlar siyasi məhbusların azadlığa buraxılması istiqamətində addımlar atılıb, müəyyən problemlərin həlli üçün sərəncamlar verilib. Bununla belə, Smit sanki bunları görmür. Bu da onun obyektiv olmadığına sübutdur".

Məsələ ilə bağlı moderator.az-a açıqlama verən Milli Şuranın sədri Cəmil Həsənli hakimiyyətin Azərbaycanı sanksiya təhlükəsi ilə üz-üzə qoyması faktının danılmaz olduğunu deyib. C.Həsənli deyib ki, ölkənin sanksiya təhlükəsi ilə qarşılaşmasının günahkarı hakimiyyət, bu hakimiyyətin yürütdüyü siyasətdir.

Qeyd edək ki, "Azərbaycan Demokratiya Aktı" adlı qanun layihəsi Azərbaycan hökumətinin yüksək rütbəli üzvlərinə viza verilməsinə qadağalar tətbiq olunmasını nəzərdə tutur. Eyni zamanda qanun layihəsi ABŞ-la ticarət aparan dairələrə, xüsusi xidmət orqanları, güc strukturları və məhkəmə orqanlarına da sanksiyaları nəzərdə tutur. Bu layihə maliyyə sanksiyalarını da nəzərdə tutur. Sənədi hazırlayan Helsinki Komissiyasına *(Komissiyanın sədri K.Smitdir)* 9 senator, 9 konqresmen, Dövlət Departamentinin və Pentaqonun hərəsindən 1 nümayəndə daxildir.

❑ **Etibar SEYİDAĞA**

# Poroşenko Bakıda anti-Rusiya bəyanatları verə bilər

## Elxan Şahinoğlu: "... Azərbaycan hakimiyyətinin maraqlarına cavab vermir"



Pyotr Poroşenko

**Ukrayna prezidenti Pyotr Poroşenko 14-16 iyul tarixlərində Azərbaycanda səfərdə olacaq. Bu, Ukraynanın dövlət başçısının ölkəmizə prezident olduğu müddət ərzində ilk səfəridir. Poroşenkonun gəlişinə qədər Ukrayna- Azərbaycan hökumətlərarası komissiyanın iclası keçiriləcək. Nümayəndə heyətinin tərkibi səfərdən bir gün öncə məlum olacaq.**

P.Poroşenkonun Bakı səfəri ərəfəsində onun Rusiya ilə münasibətləri düzəltmək üçün ciddi səylər göstərdiyi barədə xəbərlər yayılıb. Hətta bunun üçün Ukraynanın dövlət başçısının Qazaxıstan prezidenti Nursultan Nazarbayevdən vasitəçi olmaq üçün xahiş etdiyi iddia olunur. Bu xəbər təsdiqini tapmasa da, iyulun 14-də gerçəkləşəcək səfərdə rəsmi Bakının da Ukrayna-Rusiya münasibətlərində həlledici kimi gündəmə gələ biləcəyi vurğulanır. Heç şübhəsiz ki, bu səfərdə Ukrayna-Rusiya arasındakı gərgin münasibətlər əsas müzakirə mövzularından biri olacaq. Bu isə o deməkdir ki, Rusiya-Türkiyə əlaqələrinin bərpa olunması üçün əsas vasitəçi kimi daim önə sürülən Azərbaycan prezidenti İlham Əliyevin Ukrayna-Rusiya münasibətlərində də bu missiyanı daşıma ehtimalları var. Bu versiyaların fonunda Poroşenkonun Bakı səfərində anti-Rusiya bəyanatı verə biləcəyi də gözlənilən məsələlərindəndir. Bu olarsa, Azərbaycanın mövqeyinin necə olacağı müzakirə doğurur. Səfərdə son zamanlarda Ukraynadan azərbaycanlı biznesmenlərin sıxışdırılması, iş adamlarının qətli ilə bağlı gələn xəbərlərin müzakirəsi istisna olunmur.

**Politoloq Elxan Şahinoğlu Ukrayna prezidentinin Nazarbayevdən vasitəçi olmaq üçün xahiş etdiyinə inanmır:** "Belə bir iddiaların real olduğuna inanmıram. Çünki Rusiya ilə Ukrayna arasındakı barış Qazaxıstan prezidentindən asılı məsələ deyil. Nazarbayevin Qazaxıstan prezidentinin Ukrayna-Rusiya münasibətlərində vasitəçi ola biləcəyi problematikdir, eləcə də Azərbaycan prezidentinin həlli mürəkkəb olan problemin həllində vasitəçi olmayacağını zənn edirəm. Moskva Minsk razılaşmalarını yerinə yetirməlidir, Donbas separatçılarına dəstəkdən əl çəkməlidir və sərhəd boyu Ukrayna silahlı qüvvələrinin yerləşməsinə şərait yaratmalıdır. Üstəgəl, Krımın anneksiyası da davam edir. Belə olan halda Qazaxıstan prezidenti Nursultan Nazarbayev nə edə bilər ki? O bu ağırlıqda yükün altına girməz. Nazarbayev və azərbaycanlı həmkarı İlham Əliyev Türkiyə-Rusiya barışığında aktiv rol oynadılar. Ancaq Türkiyə-Rusiya münasibətləri Ukrayna-Rusiya münasibətləri qədər uçuruma yuvarlanmamışdı və birinci prosesi yoluna qoymaq daha asan idi. Rusiya Ukraynanın ərazilərinə iddiasından vaz keçmir. Əsas problem budur".

**Politoloq Poroşenkonun Bakıda Rusiya əleyhinə bəyanatı hansı şəkildə verə biləcəyinə aydınlıq gətirdi:** "Ukrayna prezidenti Bakıda anti-Rusiya bəyanatlarını bu şəkildə verə bilər ki, Rusiya Ukraynanı parçalayıb, Dağlıq Qarabağla Donbas separatçıları arasında fərq yoxdur. Ancaq aydındır ki, rəsmi Bakı Poroşenkonun bundan artıq Rusiya əleyhinə bəyanat verməsində maraqlı deyil. Hazırda Rusiya-Azərbaycan münasibətlərinin həssas dövrüdür. Rəsmi Bakının Moskvanın Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli vasitəçi olacağına inamı var. Və belə bir dövrdə Bakıda anti-Rusiya bəyanatlarının səsləndirilməsi Azərbaycan hakimiyyətinin maraqlarına cavab vermir. Ona görə də böyük ehtimalla İlham Əliyev və Pyotr Poroşenko mətbuata birgə bəyanatla kifayətlənəcəklər, məsələn, ukraynalı jurnalistlərin suallarına şərait yaradılmayacağını zənn edirəm. Məncə, Poroşenko da Azərbaycan üçün vəziyyətin mürəkkəbliyini anlayır və rəsmi Bakını çətin duruma salmaz. Poroşenkonun Azərbaycana səfərinin məqsədi də fərqlidir. Ukrayna Azərbaycanla iqtisadi əməkdaşlığı genişləndirmək istəyir".

**Müsahibimiz Azərbaycanın Ukrayna və Rusiya ilə münasibətlərdə balanslı siyasətə üstünlük verməsinin vacibliyini də vurğuladı:** "Rəsmi Bakı Rusiya ilə münasibətlərə önəm verməklə yanaşı, Ukrayna ilə münasibətlərini də inkişaf etdirməlidir. Bunu Azərbaycan hakimiyyətinin özünün elan etdiyi balanslaşdırılmış xarici siyasət də diktə edir. Azərbaycanla Ukrayna arasında iqtisadi və ticarət əlaqələrini inkişaf etdirmək üçün münbit zəmin var. Məsələn, bir neçə gün əvvəl Bakıya Ukrayna baş nazirinin müavini, regional inkişaf, tikinti və mənzil-kommunal təsərrüfat naziri, Ukrayna-Azərbaycan hökumətlərarası komissiyanın həmsədri Gennadi Zubko gəlmişdi. Bakıda Azərbaycan-Ukrayna İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclası keçirildi. Ukraynalı nazir Azərbaycana 4 istiqamətdə əməkdaşlığı genişləndirməyi təklif etdi. Birinci istiqamət Azərbaycan neftinin Ukraynanın neft emalı zavodlarına nəqlinin təmin edilməsi, ikinci istiqamət Azərbaycan neftinin Ukrayna üzərindən Avropa bazarlarına tranziti, üçüncü istiqamət Azərbaycanın Ukraynanın neft-qaz sektoruna investisiyalar yatırılması, dördüncü istiqamət isə Baltik dənizi - Qara dəniz - Xəzər dənizi nəqliyyat dəhlizinin yaradılmasıdır. Sonuncu nəhəng nəqliyyat dəhlizi layihəsidir. Bu dəhliz bir çox ölkə arasında əməkdaşlığın genişlənməsinə təkan verə bilər. Kiyev bu məqsədlə dəhlizin idarə olunması üçün vahid idarəedici orqanın yaradılmasını təklif edib. Mənə elə gəlir ki, bu təkliflər Azərbaycanın da maraqlarına uyğundur. Əslində Zubkovun Bakıya səfəri və müzakirə etdiyi mövzular Poroşenkonun Azərbaycana səfərinə hazırlıq məqsədi daşıyırdı".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 147 (6468) 6 iyul 2016

**Kaş ki, heç bir günahsız bəndənin yolu məhbəsə düşməyəydi, ağır və dar yerdir. Zindan elə bir məkandır ki, günahıyla düşənin dili qısalır, günahsız düşənin dili uzanır.**
**Oradan hərə bir cür çıxır. Adi oğrular azadlığa çıxandan sonra özlərini kriminal avtoritet kimi aparırlar, siyasi motivlərlə düşüb-çıxanların bəziləri isə özlərini siyasi avtoritet saymağa başlayırlar.**

**Xalid KAZIMLI**



# İslaholunmaz qərəzkarın yeni həmləsi - Xədicə İsmayılın əlindəki "təsbeh"...

Hiss olunur ki, araşdırmaçı jurnalist Xədicə İsmayıl ikincilərdəndir. O, azadlıqda olduğu ilk müsahibəsində artıq əlində təsbeh tutubmuş kimi, "rojon" kəsir, hökmlər verir: bu siyasi partiya elədir, o qəzet belədir və s. Sanki onun əlində "əsl müxalifətçi" vəsiqələri var və məhz o, müəyyən edir ki, bu vəsiqə kimə düşür, kimə düşmür.

Söz yox, o, günahsız həbs olunanlardan idi. Bu hakimiyyət X.İsmayılı kimisə intihar həddinə çatdırdığına görə tutmamışdı. "İntihar həddi" bəhanəydi. Əsas motiv o idi ki, araşdırmaçı jurnalist araşdırmaları ilə həddi aşmışdı.

Göründüyü kimi, "araşdırma" sözü bir öncəki cümlədə dırnaq işarələri arasına alınmayıb. Amma onu deməkdə fayda var ki, X.İsmayılın həbsinə səbəb məhz ABŞ-ın kəşfiyyat-təhqiqat strukturlarının ofşor zonalardakı bank hesablarına dair apardığı araşdırmalarla onun araşdırmalarının üst-üstə düşməsiydi.

Həmin vaxtlar ABŞ administrasiyası ilə rəsmi Bakının münasibətləri son dərəcə gərgin idi. X.İsmayıl isə ABŞ Dövlət Departamentindən maliyyələşən radionun əməkdaşıydı. İqtidar başbilənləri MKİ-nin hesabatı ilə jurnalistin araşdırması arasında necə bir bağlantı qurdularsa, jurnalisti həbs etdilər. MKİ rəislərinə əl çatmırdı, amma jurnalist yaxındaydı.

Beləliklə, iki dövlət arasında yaranmış gərginliyin pik həddinə çatdığı vaxt qarşıdurmanın qurbanı Xədicə İsmayıl oldu.

Bu həbsdə bardağı daşıran son damla rolunu isə jurnalistin bir beynəlxalq tədbirdə ermənilərə qoşularaq Azərbaycan himni çalınanda arxasına zala döndərməsi oynadı. Ona bu jestin bədəlini məhbəsdə ödətmək qərarına gəldilər.

Hazırda azadlıqda olan həmkarımız müsahibəsində məhbəsdə "kişi kimi yatdığı"na, "sınmadığı"na dair ifadələr işlədir, dolayısı ilə Leyla Yunusun "sındırıldığını", "pis günə qoyulduğu"nu təsdiq edir, bildirir ki, ona qarşı fiziki təzyiqə yol verməsələr də, Leyla Yunusa ağır işgəncələr veriblər.

Əlbəttə, həbsə alındığı ilk gündən Leyla Yunus da ABŞ konqresmenlərinin, senatorlarının, Dövlət Departamentinin səlahiyyətli şəxslərinin, Avropanın üst qurum təşkilatlarının rəhbərlərinin, eləcə də nüfuzlu beynəlxalq hüquq müdafiə təşkilatlarının total diqqəti, nəzarəti altında olsaydı, onu da "sındıra", əzə bilməzdilər.

Amma nə yazıq ki, adıçəkilən siyasi və hüquqi dairələr ölkədəki siyasi məhbusların həmısını bir tərəfə buraxıb, bütün diqqətlərini bir-iki nəfərin müdafiəsinə yönəltmişdilər. Hər gün məhz onlara azadlıq tələb edirdilər. Belə "doğma məhbus"lardan biri də X.İsmayıl idi.

Bəlliydi ki, ABŞ və Azərbaycan hakimiyyətlərinin arasındakı konflikt çözülən kimi onu azad edəcəklər. Elə də oldu.

İndi X.İsmayıl azadlıqdadır və öz ampluasındadır: məhbəsə düşməzdən əvvəl ölkə siyasətində Əli Kərimlinin rəhbərlik etdiyi partiyadan başqa siyasi qüvvə, özündən başqa "cəsur jurnalist" tanımırdısa, indi də elədir.

Siyasi baxışlarını müəyyənləşdirmək, dostlar çevrəsini seçmək, əlbəttə, onun şəxsi işidir, haqqıdır, amma "siyasətlə heç vaxt məşğul olmayacağını" deyəndən bir dəqiqə sonra siyasətlə məşğul olaraq rəqib saydığı siyasi qüvvələri "vurmaq", minlərlə fədakar, cəfakeş müxalifətçinin haqqını yemək həm qərəzli yanaşmadır, həm də öz-özünü təkzib etməkdir.

Xədicə İsmayıl həmin müsahibəsində "Yeni Müsavat" qəzetini növbəti dəfə "Səs" qəzeti ilə eyniləşdirib. Bu, efirdə yeni səs deyil. X.İsmayıldan əvvəl bu sözü yüzlərlə adam təkrarlayıb. Amma nə işdirsə, bu iddia, ittiham nə "Yeni Müsavat"ın tirajına mənfi, nə də "Səs"in tirajına müsbət təsir etməyib.

İki qəzet arasında fərqə gəlincə, bu trafaret ifadənin əsası yoxdur. X.İsmayıl qərəzsiz araşdırma aparsa, fərqi görə bilər. Məsələn, o, məhbəsdə olduğu vaxt "Səs" qəzeti onun lehinə sayıla biləcək bir cümlə verməyib, "Yeni Müsavat" isə AzadlıqRadiosu və qəzetində, "Meydan TV"-nin saytında, BBC və "Amerikanın səsi" radiolarının xəbər portallarında X.İsmayılın müdafiəsinə nə qədər yazı olubsa, hamısını verib. Bu, heç.

"Yeni Müsavat"ın "Səs"dən fərqini müsahibənin müəllifi Əvəz Zeynallı istəsə təsdiq edə bilər. İstəməsə, lazım deyil. Amma o, özünün məhbəsdə olduğu vaxt "Yeni Müsavat"dan gördüyü dəstəyi dana bilməz. Hər halda, onun yaxınları hər gün Əvəz Zeynallı haqqında yazıların dərc olunmaq üçün "Səs"ə yox, "Yeni Müsavat"a göndərirdilər və onların istəyi həmişə nəzərə alınırdı. Bu da heç.

Qəzetimizin Müsavat Partiyasının kursuna təsirinə gəlincə, bu, açıq-aşkar böhtandır. "Yeni Müsavat" artıq çoxdandır ki, partiya qəzeti deyil. Qəzetin əməkdaşları sırasında müsavatçı olanların seçimi də öz ixtiyarlarındadır. Hər biri istənilən partiyanın üzvü ola bilərlər. Yetər ki, siyasi görüşlərini peşə fəaliyyətlərinə qarışdırmasınlar.

X.İsmayılın bu sayaq fikirləri hansısa sifariş əsasında söyləndiyinə gəlincə, bu da absurd fikirdir. Ortada sifariş-filan yoxdur. O, həmişə anti-Müsavat mövqeyində olub, elə də qalır və sonadək də qalacaq.

# Nikahöncəsi müayinənin aylıq dəhşət statistikası - 12 SPİD...



**Adil Qeybulla:** "Azərbaycan əhalisinin üç milyona yaxını miqrasiya durumundadır"

**Son bir ay ərzində nikaha girmək üçün tibbi müayinədən keçən cütlüklərin dəhşətli statistikası açıqlanıb. Belə ki, iyun ayı ərzində ailə qurmaq istəyən 12959 nəfərin icbari tibbi müayinəsi həyata keçirilib. Onlardan 332 nəfərdə talassemiya daşıyıcısı aşkarlanıb. Cəmi 2 cütlüyün hər ikisində bu qan xəstəliyi aşkar edilib. 12 nəfərdə QİÇS, 49 nəfərdə isə sifilis aşkarlanıb.**

Bu barədə müvafiq mərkəzlərə geniş məlumat verilib. Bu cür yoluxucu xəstəliklərin məhz Azərbaycanda olması və sayının çoxluğu həyəcan təbili çalmağın zamanı olduğunu deməyə əsas verir. Maraqlıdır, bu cür yoluxucu xəstəliklərin Azərbaycanda peyda olmasına səbəb gigiyenik qaydalara riayət etməməkdirmi? Ümumiyyətlə, hökumət bununla bağlı ciddi tədbirlər görməlidirmi?

Bir çox mütəxəssislər bu cür məcburi tibbi müayinənin evlilik yaşamasının bir addımlığında deyil, nişanlılıq dönəmində edilməsinin tərəfdarıdır. Onlar evlilik ərəfəsinə qədər gənclərin bir-birinə öyrəşdiyini, qohumların yaxınlaşmasını, bu günə qədər nişan, toya hazırlıq prosesində çəkilən xərcləri nəzərə alaraq belə məcburi müayinənin hələ yolun başlanğıcında - gənclərin nişanlanmağa qərar verdiyi ərəfədə həyata keçirilməsini daha məqsədəuyğun hesab edir.



**Əhməd Qəşəmoğlu:** "Bu məsələ ciddi şəkildə müzakirə olunmalıdır"

**Sosioloq Əhməd Qəşəmoğlu da bu cür düşünənlər sırasındadır. Sosioloq bu statistikanın həyəcan təbili çalınası və ürək ağrıdan bir statistika olduğunu bildirdi:** "Uyğun strukturların hamısı bu məsələdə çox diqqətli olmalıdır və hər kəs öz öhdəsinə düşən sahədə fəaliyyətə keçməlidir. İstər kütləvi informasiya vasitələrində, istər də televiziyalarda maarifləndirmə işi aparılmalıdır. Amma bu, insanları incidəcək şəkildə aparılmamalıdır. Burada xüsusi metodlarla maarifləndirmə işi sürətlə getməlidir. Ortada sərbəst davranış, xalqımızın adət-ənənəsinə uyğun olmayan normalarda davranış formalarında olmağın yayıldığını göstərir. Ona görə istər qanunvericilik orqanları, istər humanitar siyasətlə məşğul olanlar, ümumiyyətlə, bütün strukturların həmısının həyəcan təbili çalacağı bir məsələdir. Təcili və fövqəladə vəziyyət olaraq uyğun strukturlarda mütəxəssislər toplaşmalı, burada psixoloqlar, sosioloqlar da olmalıdır. Həmçinin inzibati, qanunverici orqanların nümayəndələri də təmsil olunmalıdır. Bu məsələ ciddi şəkildə müzakirə edilməli və operativ qərarlar qəbul olunmalıdır".

**Ekspertin fikrincə, yaranmış durum eyni zamanda gənclərin, elə yaşlıların da bu sahədə münasibətlərdə bir mədəniyyət səviyyəsinin aşağı olmasının göstəricisidir:** "Dünyada qəbul olunmuş normalar var. Bu normaları bilmirik. Bu statistika hələ evlənmək istəyib yoxlanılanlardır. Təsəvvür edin ki, nə qədər adam elə, sadəcə, görüşür, heç bir nikah kəsdirmədən birlikdə yaşayır. Görün onların arasında nə qədər belə xəstəliklər var. Bu insanlar hələ abırlı, qanacaqlı evlənmək istəyən insanlardır. Bunların arasında bu qədər faktlar çıxıbsa, sərbəst davranışlı insanların arasında inanın ki, bu statistika qat-qat yüksəkdir. Ona görə bu faciəvi bir mənzərədir. Bununla bağlı, dediyim kimi, operativ olaraq qərarlar qəbul olunmalıdır".

**Sosioloq gənclərin nişanlılıq dönəmində bu cür tibbi müayinədən keçməsinin hər iki tərəf üçün daha əhəmiyyətli olduğunu dedi:** "Axır mərhələdə bu cür xəstəliklərin üzə çıxması çox qorxunc bir vəziyyət yaradır. Əvvəla, insanlar bir-birinə öyrəşir, qohumlar arasında get-gəl münasibətləri çoxalır, ortada hədiyyələr alınır, xərclər çəkilir. Toy ərəfəsində bunun ortaya çıxması daha faciəvidir. Amma gənclər evlənmə qərarına gəldikdə heç kimə bildirmədən gedib tibbi müayinədən keçsələr, bunu bir-birilərindən tələb etsələr, daha doğru olar. Burada da heç bir tərəf utanmamalıdır ki, məni niyə tibbi müayinəyə getməyə məcbur edirsən. Həyat norması kimi olmalıdır".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla isə bu statistikanın dəhşətli dərəcədə olduğunu düşünmür:** "Talassemiya xəstəliyi genetik keçən bir xəstəlikdir. Bu gen daşıyıcıları ölkəmizdə çoxdur. Yəni mən bu statistikanı dəhşətli adlandırmazdım. Sifilisli xəstələrə gəlincə isə Azərbaycan əhalisinin üç milyona yaxın əhalisi miqrasiya durumundadır. İran, Rusiya, Türkiyə kimi müxtəlif ölkələrə gedib gələnlərin də bu cür xəstəliklərin daşıyıcısı olması mümkündür. Biz qloballaşan bir dünyada yaşayırıq və təbii ki, dünyanın problemlərindən təcrid oluna bilmirik. Bunu öncədən bilmək bu xəstəliyin yoluxma qaydalarına riayət etmək, profilaktik tədbirlər görmək baxımından yaxşıdır. Sadəcə olaraq, bu cür xəstələrdə talassemiyalı uşaqların doğulmasının qarşısını almaq üçün mexanizmlər var. Bu, dövlətin talassemiya əleyhinə proqramında da göstərilib. Bununla bağlı mərkəz artıq mövcuddur və bu cür şəxslər həmin mərkəzdə qeydiyyatda və nəzarətdə olurlar. Belə yoxlanmaların müsbət tərəfi odur ki, yoluxucu xəstəliklər vaxtında aşkar olunur və müvafiq tədbirlər görülür. QİÇS və sifilis xəstəliklərinin isə tam müalicəsi yoxdur. Bu virus bədəndən tam çıxmır".

❑ **Günel MANAFLI**

Yeni Müsavat
N 147 (6468) 5 iyul 2016



# İŞİD gücünü haradan alır?

## Dünya hələ ki terror təşkilatları “istehsal” etmək üçün münasibdir

**Hazırda dünyanın ən təhlükəli terror təşkilatı hesab olunan İŞİD Nigeriyadan Filippinə, ABŞ-a qədər dünyanın bütün bölgələrində varlığını göstərir. “2004-cü ildə ”əl-Qaidə"nin İraqdakı təşkilatı olaraq yaradılan və Əbu Musab Zərkavinin rəhbərlik etdiyi qruplaşma 2011-ci ildə yenidən, bu dəfə “İraq, Şam İslam Dövləti” adı ilə peyda oldu.**

Ancaq bir müddətdən sonra İŞİD “əl-Qaidə”dən ayrıldığını bəyan etdi. Bunun ardınca “əl-Qaidə” lideri Ayman əz-Zəvahiri müraciət yayaraq Suriyada əsas təmsilçilərinin “ən-Nusra” olduğunu bəyan etdi və İŞİD üzvlərini bu qruplaşmaya qoşulmağa dəvət etdi. Bundan az sonra 2014-cü il yanvarın 3-də İŞİD və «ən-Nusra» arasında Suriyanın şimalında qanlı savaş başladı. Bu savaşın qəti nəticəsi olmasa da, tezliklə İŞİD Suriyanın şimalında ən güclü qruplaşmaya çevrildi.

Suriya və İraqda sürətlə genişlənən İŞİD 2014-cü ildə İraqın ikinci böyük şəhəri Mosulu işğal etdikdən az sonra iyulda “İslam Dövləti” adı ilə xilafət elan etdi. Mosulda elan olunan dövlətin xəlifəsi isə Bağdad universitetinin keçmiş müəllimi, ilahiyyatçı, əsl adı Avad İbrahim Əli olan Əbubəkr əl-Bağdadi oldu.

İŞİD-in ən “parlaq” dövrü də 2014-cü il idi. İraqın üçdə birini, Suriyanın böyük hissəsini nəzarət altına alan İŞİD həmin il “dinar” adlı qızıl pul buraxmağa başladı. Eyni zamanda Mosulda xütbə verən əl-Bağdadi dünyanın hər yerindəki müsəlmanları “xilafətə” dəvət etdi. Tezliklə İŞİD İraq və Suriya sərhədlərini aşaraq Yəmən, Misir, Liviya kimi ölkələrə yayıldı. Nigeriyada fəaliyyət göstərən radikal islamçı “Boko Haram”, Filippində fəaliyyət göstərən radikal islamçı “Əbu Səyyaf” qruplaşması, Çeçenistandakı “Qafqaz Əmirliyi”, Pakistan “Taliban”ı kimi qruplaşmalar İŞİD-ə biyət etdiklərini elan etdilər. Bundan başqa biyət edən, İŞİD-ə tabe olduğunu açıqlayan qruplaşmalar arasında Misirdə “Ənsar Beyt əl-Makdis”, Əlcəzair və Misirdə fəaliyyət göstərən “Cund əl-Xəlifə”, Yəmən “Ərəb yarımadası əl-Qaidəsi”, Hindistanda “Ənsar Camaat ət-Təvhid” kimi islamçı qruplaşmalar da vardı. Son iki ildə İŞİD ABŞ-dan Banqladeşə qədər çoxlu sayda ölkələrdə. O cümlədən İraq, Suriya, Yəmən, Misir, Tunis, Türkiyə, Səudiyyə Ərəbistanı, Fransa, Belçika və digər ölkələrdə terror aksiyalarını İŞİDA törədib.

2014-cü ilin avqustunda İŞİD-ə qarşı beynəlxalq hərbi koalisiya yaradılıb. Eyni zamanda İraq və Suriya ordusu, kürd silahlı birlikləri İraqda İŞİD-ə qarşı böyük əməliyyatlar keçirib. Son məlumatlara görə, İŞİD İraqda ələ keçirdiyi ərazilərin 45 faizini, Suriya və Liviyada isə üçdə birini itirib. Lakin buna baxmayaraq, qruplaşma hələ də çox güclüdür. Təkcə bu ilin əvvəllərindən bu yana İŞİD Suriyada Palmira (Tədmur), Menbic şəhərlərini, İraqda isə Fəlucca şəhərini itirib.

Torpaqlarla yanaşı, İŞİD gəlirlərinin də böyük hissəsini itirib. Qərb mediasının məlumatına görə, həm neft qiymətlərinin kəskin ucuzlaşması, həm də böyük ərazilər itirməsi nəticəsində vergilərin azalması İŞİD-in gəlirlərinə ciddi təsir edib. Lakin hazırda qruplaşmanın neftdən aylıq 20 milyon dollar, vergilərdən isə bunun iki qatı qədər gəlir əldə etdiyi ehtimal olunur.

Ancaq qruplaşmanın ən böyük itkisi, ekspertlərə görə, canlı üzvlərinin sayının azalmasıdır. Araşdırmalara görə, 2014-2015-ci illərdə, yəni təşkilatın ən parlaq vaxtında İraq və Suriyadakı İŞİD üzvlərinin sayı 80-100 min nəfər arasında dəyişib. Ancaq ötən iki ildə aramsız savaşlar və hava bombardmanları nəticəsində İŞİD-in 25 mindən artıq silahlı itirdiyi ehtimal olunur. İŞİD üçün ən təhlükəlisi isə qruplaşmaya yeni terrorçu cəlb etmək imkanlarının azalmasıdır. Kəşfiyyat analizlərinə görə, ötən illərlə müqayisədə hazırda İŞİD-ə yeni üzvlərin cəlb olunması 90 faiz azalıb. Bu isə daha çox həm qruplaşmanın daha zəif və əlverişli bölgələrdə ortaya çıxmaqla həm ömrünü uzadır, həm də diqqəti dağıdır. İkinci səbəb, İŞİD mövcudluğu və gücü onun törətdiyi terror, silahlı hücumlarla paralellik təşkil edir. Çünki törətdiyi terror aksiyaları bu qruplaşmanın hələ güclü olduğu, onu məhv etməyin elə də asan olmadığı, eyni zamanda dünyanın harasında olursa-olsun “bütün kafirlərə qarşı” savaşdığını göstərir. Və nəhayət, üçüncü mühüm səbəb bu terror aktları və silahlı hücumlar İŞİD maddi gəlir qaynağı, eləcə də yeni üzvlər cəlb etməsi üçün əsas təbliğat vasitəsidir. Çünki qruplaşmaya yeni üzvlər və dəstəkçilər məhz bu cür aksiyalar nəticəsində cəlb olunur. İŞİD təbliğatçıları bilirlər ki, davamlı məğlubiyyət xəsavaşda məğlubiyyətləri, eləcə də Türkiyə sərhədlərinin möhkəmləndirilməsi, dünya ölkələrində nəzarət sisteminin güclənməsi ilə əlaqədardır.

Ancaq yeni üzvlərin cəlb olunmasında azalmaya rəğmən İŞİD yeni-yeni ölkələrə yayılmaqda davam edir. Eyni zamanda paralel olaraq İŞİD-in terror törətdiyi ölkələrin coğrafiyası da genişlənir. Bunu isə bir neçə amillə izah etmək olar. Birincisi, İŞİD İraq və Suriyada birbaşa silahlı toqquşmalarda məğlub olub geri çəkildiyi üçün indi daha çox fərqli ölkələrə yayılmaq və bərləri və fəaliyyətinin zəifləməsi qruplaşmaya diqqəti azaldacaq. Bu səbəbdən də İŞİD dünyanın istənilən nöqtəsində adının hallandırılmasında maraqlıdır. Buna görə də bəzən heç bağlılığı olmayan terror hadisələrini də İŞİD öz üzərinə alır.

Yaxın Şərqdə yaranmış böyük xaos və qarmaqarışıqlıq, müsəlman ölkələrindəki ideoloji boşluq, dini hökmləri təhrif olunması, uzun illərdir davam edən qeyri-demokratik, zorakı hakimiyyətlər nəticəsində formalaşmış nifrət son nəticədə İŞİD kimi bir savaş və terror qruplaşmasını meydana çıxardı. İŞİD 21-ci əsrdə zorakılığın və savaşın təşkilatlanmış şəklidir. 100 il əvvəl bu gün İŞİD-ə qoşulan insanlarla eyni xarakterdə olan insanlar başqa qruplar, sol inqilabçı hərəkatlara, ya da anarxist qruplara qoşulurdu, 50 il əvvəl isə zorakılığın ünvanı başqa ideologiyalar və qruplar idi. İndi isə İslamdır, din bu radikal qrupların savaşlarını legitimləşdirmək vasitəsidir. Bu səbəbdən də indi dünyanın qarşısında dayanan əsas problem bir qruplaşmanın məhv edilməsi deyil, onu yaradan şəraitlərin aradan qaldırılmasıdır. Bu şəraitlər isə həm şərqdə, həm də qərbdə hələ çox münasibdir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# İstanbul terrorunda vətəndaşımız saxlanıldı-Azərbaycan nə etməli?

## Vətəndaşımızın şübhəli şəxs qismində saxlanılması ölkəmizdə üzüntü ilə qarşılanıb; ekspertlər Azərbaycan hökumətini önləyici tədbirlərə görməyə çağırır

**İyunun 28-də İstanbulun Atatürk Hava Limanında baş verən terrorla bağlı şübhəli şəxs qismində saxlanılanlar arasında Azərbaycan vətəndaşı da var. Bu barədə Türkiyənin hüquq müdafiəçilərinə istinadən “Kafkazskiy uzel” saytı məlumat yayıb.**

İyunun 30-u polis və terrorizmlə mübarizə üzrə bölməsinin əməkdaşları İstanbulun müxtəlif rayonlarında antiterror əməliyyatı keçirib. Azərbaycan vətəndaşının İstanbulun Avropa hissəsində yerləşən Kayaşehir rayonunda saxlanıldığı bildirilir.

“Biz onun adını çəkmək istəmirik. Terrorizmlə mübarizə üzrə bölmənin əməkdaşları səhər tezdən gəldilər. Hamı yatırdı. Bölmənin əməkdaşları ailə üzvlərindən birini apardılar”, - deyə, Azərbaycan vətəndaşının qonşusu bildirib. Onun sözlərinə görə, Azərbaycan vətəndaşı daha əvvəl miqrasiya xidmətinin əməkdaşları tərəfindən saxlanılıb.

Azərbaycanlı vətəndaşın qardaş ölkədə baş verən faciə ilə bağlı saxlanılması ölkəmizdə üzüntü ilə qarşılanıb. Belə ki, terrorun törədildiyi an Türkiyə ilə yanaşı, Azərbaycan da yasa batdı. Belə bir məqamda bu cür hadisələrin yaşanması heç də bizim üçün xoş deyil. Doğrudur, zaman-zaman Türkiyə ərazisindən İŞİD-ə qoşulan kifayət qədər azərbaycanlı olub. Amma istənilən halda bu cür hadisələrdə vətəndaşlarımızın adının hallanması heç də xoş deyil. Ekspertlər hesab edirlər ki, Azərbaycan hökuməti bununla bağlı önləyici tədbirlər görməli, baş verən



hadisəyə dərhal münasibətini bildirməlidir. Çünki saxlanılan Azərbaycan vətəndaşının terrorla əlaqəsinin olması Türkiyə ictimaiyyəti arasında Azərbaycana qarşı müəyyən mənfi münasibətin yaranmasına səbəb ola bilər.

**Politoloq Qabil Hüseynli hesab edir ki, İŞİD terror qruplaşmasında müxtəlif mənşəli xalqlara məxsus şəxslər var:** “Təəssüf ki, İŞİD-in sıralarında 300-ə yaxın da azərbaycanlı var. O cümlədən də xeyli sayda türk və kürd var. Bunları ona görə deyirəm ki, terrorçunun milliyyəti olmur. Terrorçunun beyni o qədər korlanıb ki, onun üçün milli mənsubiyyət anlayışı çoxdan yoxa çıxıb. Azərbaycan vətəndaşının İstanbul terroru ilə bağlı həbsindən təəccüblənmirəm. Türkiyədə 3-5 bu tipli yaramaz azərbaycanlının terrorda iştirak etməsi türklərin xalqımıza qarşı münasibətində dəyişikliyə səbəb olmamalıdır. Necə ki, terroru törədən 5 dəstədən 3-ü zərərsizləşdirilib ki, onların tərkibindəkilərin əksəriyyəti çeçenlərdir. O çeçənlər ki, vaxtilə Türkiyə onlara qucaq açıb, yer, oturum izni verib, həmçinin onlara humanitar yardım göstərib. Bunlar İstanbulda Fateh rayonunda yaşayaraq, şəhərdə baş verən böyük terror aktında iştirak ediblər. İslamın bu radikal qanadı insanı milli mənsubiyyətindən çıxarmağa, öz ölkəsinə, xalqına qarşı çevirməyə qadirdir. İŞİD-in tərkibində olan ”İslam Azəri" təşkilatının üzvləri ölkəmizi dəfələrlə terrorla hədələyiblər. Bunlar milli simasını itirmiş, vətən adlı hissdən uzaqlaşmış cani xislətli şəxslərdir. Belə bir şəxsləri böyük bir toplumun ayağına yazmaq tamamilə günahdır. Qeyri-düzgün yanaşma olar. Düşünürəm ki, azərbaycanlılar yenə də tutula bilər. Çünki Türkiyənin sərhəd bölgəsinə İŞİD 14 minlik dəstə toplayıb. O dəstənin tərkibində yuxarıda qeyd etdiyim 300 azərbaycanlıya daxil şəxslər var. Bu, çox utancverici vəziyyətdir. Dinin başı buraxıldıqda, nəzarət zəiflədikdə, din öz missiyası ilə deyil, siyasətlə məşğul olduqda, cəmiyyətin müxtəlif sahələrinə bu yolla daxil olduqda, bu cür xoşagəlməz vəziyyət yaranır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 147 (6468) 6 iyul 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Substantiv danışıqlar önündə əsas əngəl - status-kvo ən çox kimə sərfdir?

## Prosesin qapalı getməsi bəzi suallar yaradıb; Moskva müharibə ssenarisini də öz nəzarətində saxlamağa çalışır; **erməni ekspert**: "Rusiya Azərbaycanla Ermənistan arasında seçim eləmək istəmir"



**Rusiya Dağlıq Qarabağ məsələsində öz dominant təsirini saxlamaqda davam edir. Lakin əfsuslar olsun ki, bu dominantlıq müstəsna olaraq Rusiyanın özünə siyasi faydalar gətirməkdədir. Fayda da budur ki, Kreml Qarabağ münaqişəsi hesabına Azərbaycanla Ermənistanı uğurlu şəkildə özünün təsir dairəsində saxlamağı bacarır.**




Problem xeyli dərəcədə bu səbəbdən on illərdir yerindədir. Hərçənd Moskva daima belə təəssürat yaratmağa çalışır ki, guya Qarabağ məsələsinin həlli üçün nələrsə edir, bu yöndə ciddi səylə çalışır. Son olaraq Rusiya XİN rəsmisi Mariya Zaxarova İrəvanda, KTMT toplantısı çərçivəsində iddia edib ki, guya rəsmi Moskva konfliktin həlli üçün total səylər göstərir.

Əlbəttə ki, ağ yalandır. Məsələ ondadır ki, Moskva bu günədək həmin "total səylərin" çox yox, yüzdə birini göstərsəydi, münaqişə çoxdan çözülərdi. Təəssüf ki, Rusiyaya münaqişə lazımdır, onun həlli yox. Hətta konfliktin marionet Ermənistanın xeyrini həlli də Kremlə sərfəli deyil. Çünki ixtilafın bitməsi Moskvanın regionla bağlı strateji maraqlarının itirilməsi deməkdir.

***

Söz düşmüşkən, KTMT-nin İrəvan toplantısının yekununda Dağlıq Qarabağla bağlı xüsusi bəyanat qəbul olunub. Sənəddə Dağlıq Qarabağla bağlı mayın 16-da Vyanada, iyunun 20-də isə Sankt-Peterburqda keçirilmiş sammitlərdə münaqişə zonasında eskalasiyanın qəbuledilməz olduğu, vəziyyətin sabitləşməsi və sülh prosesinin irəliləməsi üçün şəraitin yaradılması məqsədilə əldə olunmuş razılaşmalara dəstək ifadə edilib.

"Biz Dağlıq Qarabağ probleminin yalnız sülh yolu ilə həllinin vacibliyini dəstəkləyərək, münaqişənin zor işlətməmək və ya zor işlətməklə hədələməmək, dövlətlərin ərazi bütövlüyü, xalqların bərabərliyi və öz müqəddəratını təyin etmək hüququna dair BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin beynəlxalq hüquq normaları çərçivəsində göstərdiyi səyləri alqışlayırıq", - deyə Ermənistan XİN-in saytında dərc olunmuş bəyanatda qeyd olunub.

Göründüyü kimi, sənəddə Rusiyanı, ermənipərəst vasitəçiləri tam qane edən ənənəvi, şablon yanaşma əksini tapıb. Konfliktin qayəsində duran əsas səbəb - işğal faktı barədə isə bir kəlmə də yoxdur. Necə deyərlər, diaqnoz qoyulmayıb, amma "müalicədən" dəm vururlar. Bu isə mümkün deyil.

***

**Rusiyaya gəlincə, onu söz yox ki, Azərbaycanın ərazi bütövlüyü yox, Azərbaycanın da daxil olduğu Güney Qafqazı nəzarət maraqlandırır. Kremlin əsas hədəfi - bu. Bu hədəf indi həm də onun Qarabağda yeni müharibə məsələsinə yanaşmasını müəyyən edir - təbii ki, yenə də Azərbaycanın deyil, ilk növbədə özünün xeyrinə. Başqa sözlə, Moskva mümkün müharibə ssenarisini də öz nəzarətində saxlamaq istəyir.**

"Cənubi Qafqaz - Rusiyanın nüfuz dairəsinə daxildir. Ona görə də Dağlıq Qarabağ münaqişəsinin hər hansı formada kəskinləşməsi ilk növbədə Rusiyaya sərfəli deyil, çünki o halda Moskva tərəf tutmalı olacaq. Kimin tərəfini tutacaq - yəqin ki, bu da hamıya aydındır. O zaman Rusiyanın o biri tərəflə münasibətləri korlanacaq".

Musavat.com-un məlumatına görə, bunu haqqın.az saytına eksklüziv müsahibəsində **beynəlxalq münasibətlər sahəsində ekspert, Rusiya EA-nın ABŞ və Kanada İnstitutunun elmi əməkdaşı Gevorq Mirzayan** bildirib. Onun sözlərinə görə, o səbəbdən Moskva olduqca maraqlıdır ki, Qarabağ münaqişəsi zonasında heç bir kəskinləşmə olmasın.

"ATƏT belə vasitəçiliyi aparmaq imkanında deyil. Avropa Birliyi erməni-Azərbaycan probleminin hayında deyil. ABŞ-ın problemi necə həll elədiyini isə gördük. Burada məsələ heç də Moskvanın kiməsə rəğbət bəsləməsi və ya bəsləməməsində deyil, Rusiyanın milli maraqlarındadır. İstəməzdik ki, Cənubi Osetiya ilə bağlı situasiya Qarabağda da təkrarlansın, çünki bu, Rusiyanı seçim qarşısında qoyacaq. Rusiya isə indi seçim eləmək istəmir. Ancaq genişmiqyaslı hərbi əməliyyatlar variantında mən Cənubi Osetiya ssenarisini istisna eləmirəm".

**Qeyd edək ki, G. Mirzayanın bir sıra erməni KİV-də getmiş "Dağlıq Qarabağ - hüquqi cəhətdən Azərbaycana məxsusdur" fikri erməni toplumunda süngü ucunda qarşılanıb, onu hətta "Kremlin əlaltısı" adlandırıblar. Bununla bağlı erməni əsilli rusiyalı politoloq deyib:** "Mən həqiqətən də demişəm ki, hüquqi nöqteyi-nəzərdən, beynəlxalq hüquq normaları baxımından Qarabağ - Azərbaycan ərazisidir. Ancaq bu, heç bir əhəmiyyət daşımır, çünki dünya siyasətində ərazinin hüquqi cəhətdən və ya tarixən kimə məxsus olması yox, konkret halda kimin ona nəzarət eləməsi önəm kəsb edir. Krım təkcə ona görə Rusiyanın deyil ki, orada referendum keçirilib, həm də o səbəbə ki, o, Rusiyanın nəzarətindədir. Dağlıq Qarabağ de-yure Azərbaycana məxsus olsa da, de-fakto ermənilərindir, çünki ona məhz ermənilər nəzarət edir".

***

Əlində Dağlıq Qarabağa da Rusiya nəzarət edir - erməninin vasitəsi ilə. Problem bundadır. Problem həm də Dağlıq Qarabağı de-fakto işğal edən Rusiyanın əsas vasitəçi rolunda çıxış eləməsidir. Yoxsa konflikt çoxdan tarixin arxivinə verilmişdi. Bu mənada "Azərbaycan Qarabağ məsələsində ən əvvəl Moskva ilə dil tapmalıdır - o cümlədən də müharibə məsələsində" deyənlər yüzdə yüz haqlıdırlar.

**Bəs bundan sonra nə olacaq, pozitiv gözləntilər varmı?**

"Hiss olunur ki, Dağlıq Qarabağ probleminin həlli istiqamətində səylər kifayət qədər yüksək səviyyədə və mütəmadi olaraq həyata keçirilir. Bu müsbətdir". Bu sözləri **politoloq Rasim Musabəyov** axar.az-a deyib. O, Qərb və Rusiya rəsmilərinin regiona son səfərləri, Azərbaycan və Ermənistan prezidentlərinin gözlənilən görüşləri fonunda Qarabağla bağlı danışıqlar prosesinin gedişatını dəyərləndirib.

"Azərbaycanın tələbi ondan ibarətdir ki, substantiv danışıqlar təşkil olunsun və faktiki olaraq vəziyyət dondurulmuş şəkildə qalmasın. Hazırda bu proses müşahidə olunur. Ancaq indi əsas məsələ bu səylərin hansı nəticəyə gətirib çıxaracağıdır. Bu nəticələrin tərəflər üçün məqbul olacağını isə nəzəri cəhətdən öncədən söyləmək çətindir. Proses sınaqdan keçməlidir. Yəni səylər nəticə verdiyi halda Qarabağ siyasi prosesi üzrə müsbət dəyişikliklər baş verə bilər. Bunu isə təkcə prosesin sonunda, yaxud da yetişəcək hansısa bir mərhələsində demək mümkün olacaq" - ekspert qeyd edib.

**Musabəyov Rusiya-Türkiyə yaxınlaşmasını hazırkı dönəmdə siyasi cəhətdən müsbət amil sayır:** "Moskva ilə Ankaranın Qarabağ prosesinə təsir imkanları böyükdür və bu amil getdikcə güclənir. Dövlətlər arasında gərginlik münaqişənin həllinə birgə səyləri çətinləşdirir. İki ölkə arasındakı münasibətlərdə baş verən irəliləyişlər problemə öz müsbət təsirini göstərəcək".

Qeyd edək ki, Azərbaycan və Ermənistan prezidentlərinin avqustda Parisdə, daha sonra isə ABŞ-da görüşəcəyi bildirilir.

# Beynəlxalq Böhran Qrupundan Qarabağda müharibə xəbərdarlığı

**"Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi gərginliyin bərpası aprel hadisələrindən daha çox dağıdıcı olacaq". Bu barədə Beynəlxalq Böhran Qrupunun (BBQ) Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş hesabatında deyilir ("Report").**




Təşkilat qeyd edir ki, "yer-yer" tipli raketlərdən istifadə riski mövcuddur, dinc sakinlər arasında itkilər isə yüksək olacaq. "25 il əvvəllə müqayisədə aprel ayında Ermənistan və Azərbaycan cəmiyyəti münaqişəni hərbi yolla həll etməyə daha çox meylli idi" - sənəddə bildirilir.

Münaqişənin həllində üçüncü ölkələrin rolunu şərh edərkən BBQ Rusiyanın özünü əsas vasitəçi və təhlükəsizlik qarantı kimi gördüyünü vurğulayır: "Rusiya Ermənistanla sazişlərə əsasən özünü təhlükəsizliyin qarantı kimi göstərir. Türkiyənin isə Azərbaycanla hərbi əməkdaşlığı, vacib enerji əməkdaşlığı, sıx siyasi və iqtisadi münasibətləri var. Moskva və Ankara arasında əlaqələr gərgindir. İran isə hələ də regiona yanaşmasını müəyyənləşdirir, amma regionda böyük rol oynamağa çalışır. Burada maraqlar Dağlıq Qarabağ münaqişəsində irəliləyiş baxımından eynilik təşkil edir. Ancaq özünü əsas vasitəçi kimi görən Moskva təsir zonası hesab etdiyi regionda mövqelərini gücləndirməyə səy edir".

Avropa Birliyinin (AB) roluna gəlincə, təşkilat AB-nin ATƏT-in Minsk Qrupunu dəstəkləməyə davam etməsinin zəruri olduğunu qeyd edir: "AB münaqişədən sonrakı dövrdə nə kimi yardım göstərə biləcəyini düşünməlidir".

Sonda BBQ bəyan edir ki, ATƏT-in Yüksək Səviyyəli Planlaşdırma Qrupu gələcək sülhməramlı missiya ilə bağlı işləri gücləndirməlidir: "Bu məsələ ətrafında çoxlu siyasət işləri olacaq, amma planlaşdırmanı sürətləndirmək üçün müzakirələr aparılmalıdır".

YENİ MÜSAVAT
N 147 (6468) 6 iyul 2016

**Ölkənin bank sistemini bürüyən böhran vəziyyətə nəzarət imkanlarını minimuma endirib. Bankları sağlamlaşdırmaq üçün hökumətin cəhdləri də nəticəsizdir. Maliyyə Bazarlarına Nəzarət Palatası sabiq nazir Heydər Babayevə məxsus "Bank Standard"ın sağlamlaşdırılmasına qərar versə də, ekspertlər burada ciddi qanun pozuntularının olduğunu bildirirlər.**




# "Bank Standard" Heydər Babayevdən qeyri-standart alınır

## Ekspert bildirir ki, bankın "sağlamlaşdırılmasında" məqsəd əmanətlərin qaytarılmamasıdır, banka kredit isə müəmmalı şəkildə digər bank vasitəsilə verilir

**Ekspert Əkrəm Həsənov** sözlərinə görə, "Bank Standard"ın qeyri-sağlam "sağlamlaşdırılma"sı davam edir: "Bir neçə gün əvvəl Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbəri bildirib ki, iyulun 4-dən Bank Standard "normal rejimdə" fəaliyyətə başlayacaq. Yəni qanun pozuntularına son qoyacaq, o cümlədən əmanətçilərin pulunu uzağı 5 iş günü ərzində qaytaracaq. Lakin artıq əmanətçilərə bankda yenə bildirilib ki, pullarını tam çıxara bilməyəcəklər. Üstəlik, dollar əmanətləri manatla, özü də aşağı məzənnə ilə qaytarılır, halbuki bu məsələdə qanuna görə seçim müştərinin olmalıdır: dollar əmanətini manatla götürmək istəmirsə, ona dollar verilməlidir. Əgər Palata üçün belə qanun pozuntuları ilə fəaliyyət "normaldır"sa, vay bank sisteminin və ölkə iqtisadiyyatını halına! "Bank Standard"ın "sağlamlaşdırılması" əməliyyatı kobud qanun pozuntuları ilə aparılır. Sağlamlaşdırma Nazirlər Kabinetinin qərarı ilə aparılmalıdır, amma həmin qərar indiyədək dərc olunmayıb. Sağlamlaşdırma planı Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunmalıdır, amma indiyədək həmin plan dərc olunmayıb. Əksinə, Palata deyir ki, planı hələ hazırlayır. Əmanətlərin qaytarılmasının dayandırılması məhkəmə qərarı ilə olmalı idi. Deyirlər ki, belə qərar var, amma onu da dərc etmirlər. Palata bəyanat yayıb ki, sağlamlaşdırma "Azər-Türk Bank" vasitəsilə aparılacaq. Hətta bankın idarəetmə orqanlarını da bu bank normallaşdıracaq. Halbuki bu, mövcud səhmdarların səhmlərinin əllərindən alınması deməkdir. Bunun üçünsə qanuna görə, məhkəmə qərarı tələb olunur. Hanı həmin qərar? Niyə açıqlanmır? Palata iki gün əvvəl həmçinin bəyan edib ki, "Azər-Türk Bank" tərəfindən Mərkəzi Bankın maliyyə dəstəyi hesabına "Bank Standard"a 1 illik kredit xətti ayrılıb. Əvvəla, Mərkəzi Bank dəstək verirsə, elə birbaşa krediti "Bank Standard"a versin, "Azər-Türk Bank"a nə ehtiyac var? Vasitəçi nəyə lazımdır? Digər tərəfdən, kredit xəttinin məbləği açıqlanmır. Sağlamlaşdırma üçün vəsaitlər dövlət hesabına ayrılır və Nazirlər Kabinetinin qərarında əksini tapmalı idi. Burada gizli bir şey olmalı deyil. Əksinə, xalq onun hesabına hansısa bankın xilasına ayrılan məbləği bilməlidir, əmanətçilər də o cümlədən. Qeyri-şəffaf sağlamlaşdırma ola bilməz. Bu, ümumiyyətlə, sağlamlaşdırma deyil, baş aldatmadır. Görünən odur ki, "Bank Standard"ın "sağlamlaşdırılması" əməliyyatının əsas məqsədi elə əmanətlərin qaytarılmamasıdır. Çünki Əmanətlərin Sığortalanması Fondu faktiki müflisləşib və pulu yoxdur. Belə gedişlə bank sisteminə etimadı necə bərpa etmək olar? Bundan sonra əmanətlərin gu-


Heydər Babayev

ya tam sığortalanmasına inanıb bankda kim pul saxlayar?"

❑ RÖYA

# Gürcüstan azərbaycanlıları gömrükdən güzəşt istəyir

## "İcazə versinlər, Azərbaycana ucuz kartof gətirib sataq, burada dolana bilmirik"

**Gürcüstanda yaşayan azərbaycanlıların iqtisadi problemləri yenidən gündəmə gəlib. Belə ki, əsas fəaliyyət sahəsi kənd təsərrüfatı məhsullarının istehsalı olan soydaşlarımız bu il məhsullarını satmaqda çətinlik çəkirlər. Azərbaycana ixrac olunan məhsullar isə gömrükdə problemlə üzləşir.**



"Qeyrət" hərəkatının sərdi Əlibala Əsgərovun sosial şəbəkədəki səhifəsində bu haqda yazdığı statusdan sonra biz də mövzunun izinə düşdük. "Yeni Müsavat" qəzet olaraq Gürcüstanın Qardabani rayon sakini, Gürcüstanda nəşr olunan **"Maarif" qəzetinin redaktoru Ələddin Qarabağlı** ilə əlaqə saxlayıb əhalinin maddi durumun necə olması ilə maraqlandıq.

**Ə.Qarabağlı Gürcüstanda yaşayan azərbaycanlıların həddindən artıq problemlər içində olduğunu bildirdi:** "Əlibala Əsgərovun qaldırdığı bu məsələ tamamilə haqlıdır. Gürcüstanda yaşayan hər 5 azərbaycanlı ailəsindən ikisi banklardan kredit götürüb məhsul əkir, sonradan onu satıb həm krediti ödəyir, əm də ailənin sosial ehtiyaclarını ödəyir. Lakin bu sahədə mövcud olan problemlər kəndlini pis vəziyyətə qoyub. Kəndlilər məhsulunu Gürcüstan bazarında satmağa meylli deyil. Çünki Gürcüstan bazarında kartof həddindən artıq ucuzdur və bu qiymətlər imkan vermir ki, kəndli öz məhsulunu satmaqla həm bank xərclərini, həm də ailəsinin illik dolanışıq xərclərini təmin etsin. Belə ki, Gürcüstanda kartofun kiloqramı 50-80 tetri arasında dəyişir, yəni heç 1 lari də deyil. Bu isə Azərbaycan manatı ilə təxminən 33 qəpik edir. Bu da kəndlinin çəkdiyi zəhmətə ekvivalent deyil. Ona görə də Gürcüstan azərbaycanlılarının, kənd təsərrüfatı ilə məşğul olan insanlarımızın vəziyyəti çox çətindir. Əgər bu vəziyyət bir neçə il davam edərsə, kəndli ölkəni, öz torpaqlarını tərk etmək məcburiyyətində qalar".

**Müsahibimiz bildirdi ki, son 15 ildə Gürcüstanda yaşayan soydaşlarımızın sayı təxminən 20 faiz azalıb:** "Bir faktı qeyd edək ki, 2002-ci ildəki siyahıya alınmada Gürcüstanda 284 min azərbaycanlı yaşayırdı. 2014-cü ilin sonunda aparılan əhalinin siyahıya alınmasında azərbaycanlılar 230 min nəfər olub. Bunun da səbəbi odur ki, Gürcüstanda yaşayan azərbaycanlılar təsərrüfatda çalışsa da bir nəticə əldə edə bilmir, məhsulu daxili bazara çıxara bilmir, çünki qiymət çox aşağıdır. Ölkə xaricinə də çıxara bilmir. Bu səbəbdən insanlar məcbur qalıb digər ölkələrə üz tuturlar".

**Ələddin Qarabağlı onu da diqqətə çatdırdı ki, Gürcüstan azərbaycanlılarının ən böyük problemi Azərbaycana kartof və digər məhsullar gətirərkən, gömrükdə problemlə üzləşmələridir:** "Azərbaycana aparılan məhsullarını, kartofu, qarpız-yemişi Gürcüstan gömrüyü neytral zonaya buraxır. Neytral zonada da heç bir problem yoxdur, maşınlar saxlanılmır. Elə ki, Gürcüstan gömrüyündən adlayıb, Azərbaycan gömrüyünə keçir, Gürcüstandan gələn maşınların hamısı gözləməyə alınır. Azərbaycan gömrüyündə bir maşını yola salmaq üçün nə qədər vaxt lazım gəlir, mən bunu başa düşə bilmirəm. Azərbaycandan Gürcüstana gələn maşınlarda heç bir problem olmur, avtomatik olaraq 2-3 dəqiqə ərzində ən iri yük maşınları da yoxlanıb buraxılır. Ancaq Gürcüstandan Azərbaycana adlayan maşınlar neytral zonada sutka ilə gözləməli olurlar. Həmin müddət ərzində orada "katyolda" nə baş verir, bu bizə qaranlıqdır. Burada problem sənədlərdə ola bilməz, əks halda, maşın Gürcüstan tərəfdən keçə bilməzdi. Deməli, başqa problem ortaya çıxır, bu isə daxili işdir və biz onu bilmirik. Mən buradan səslənib xahiş edirəm ki, bu problem tezliklə həll edilsin. Gürcüstanda yaşayan azərbaycanlıların problemləri həddindən artıq çoxdur. Xahiş edirik ki, heç olmasa bu mövsümdə kəndli kartofunu Azərbaycana keçirib sata bilsin. Əks halda, məhsul yanır və kəndlinin bir illik dolanışığı sual altına düşür. İnsanlar bunu yalnız və yalnız çörəkpulu üçün edirlər, orada onlara heç bir əlavə gəlir qalmır".

**İqtisadçı ekspert Vüqar Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu proseslərin tənzimlənməsi və süni əngəllərin aradan qaldırılması olduqca vacibdir:** "Bu, təkcə Gürcüstandan gələn mallar üçün deyil, bütün digər ölkələrdən Azərbaycana məhsul ixrac edənlər üçün tətbiq edilməlidir. Prosedurlar sadələşdirilməlidir, süni əngəllər aradan qaldırılmalıdır, proses elektronlaşdırılmalıdır ki, gömrük məntəqəsində iş adamları uzun zaman itirməsin. Dünya Bankının bizneslə bağlı hesabatında da Azərbaycana idxalda prosedurların sayının çox olması əsas problemlərdən biri kimi göstərilir. Azərbaycan gömrük sistemində liberallaşma getməlidir".

**Gürcüstan azərbaycanlılarının ölkəmizə ixrac etdiyi məhsullara vergi güzəştlərinin tətbiq olunmasına gəlincə, V.Bayramov bunun tətbiqinin heç də asan olmadığını diqqətə çatdırdı:** "Burada söhbət idxal vergilərinə edilən güzəştlərdən gedir. Adətən iki ölkə arasında güzəştlər tətbiq edilən zaman bu məsələ həmin hökumətlər arasında razılaşdırılır. Azərbaycan Gürcüstandan gələn malları gömrük vergisindən azad edərsə, bu ölkələr arasında qarşılıqlı anlaşma nəticəsində baş verməlidir. Çünki burada problemlərdən biri ondan ibarətdir ki, əgər Azərbaycan tərəfi Gürcüstandan gələn kartof məhsullarına gömrük güzəşti tətbiq edirsə, bu zaman artıq həmin güzəştlərdən kimlərin yararlanacağını müəyyənləşdirmək çətin olacaq. Çünki yalnız bir ölkənin bir bölgəsinə vergi güzəşti tətbiq etmək və onu izləmək olduqca çətindir. Bu baxımdan Gürcüstanla Azərbaycan arasında qarşılıqlı olaraq vergi güzəştlərinin tətbiq edilməsinə ehtiyac var. Konkret bölgəyə vergi güzəştlərinin tətbiq edilməsi və onun prosedurlarının izlənməsi olduqca çətindir".

**Ekspert onu da vurğuladı ki, Gürcüstandan və digər ölkələrdən idxalın asanlaşması ilə yanaşı, daxili bazarın qorunması da vacibdir:** "Gürcüstandan kartof çox ucuz gətirilsə də, ölkədə onlara vergi tətbiq etdikdən sonra qiymət yenidən qalxır. Daxili bazarın qorunması üçün vergilərin saxlanması vacibdir. Çünki Azərbaycan özü kartof istehsal edən ölkədir. Əgər biz daha ucuz kartofun ölkəyə gəlməsini təmin etsək, nəticə etibarilə ölkə daxilində kartof istehsal edən fermerlər sıradan çıxacaq. Ona görə də güzəştlər deyil, prosedurların sadələşdirilməsi gündəmə gətirilməlidir".

❑ Nərgiz LİFTİYEVA

# Azərbaycan özü dini kadrlar hazırlayacaq

## Paytaxtda və bölgələrdə yeni mədrəsələr fəaliyyətə başlayacaq

**Azərbaycan artıq özü dini kadrlar hazırlayacaq. Belə ki, ölkə rəhbərliyinin göstərişi ilə paytaxtda və Azərbaycanın bir sıra bölgələrində yeni mədrəsələr fəaliyyətə başlayacaq. Bu barədə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov report.az saytına açıqlamasında bildirib. Onun sözlərinə görə, yeni mədrəsələrin yaradılması prosesinə Qafqaz Müsəlmanları İdarəsi rəhbərlik edir: "Ölkə rəhbərliyi bununla bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə də göstəriş verib. Dövlət Komitəsi də prosesdə iştirak edir. Azərbaycanda yeni mədrəsələrin açılması istiqamətində intensiv hazırlıq işləri görülür".**



S.Heydərovun sözlərinə görə, Bakıda "Heydər" məscidinin nəzdində, Gəncədə və Lənkəranda mədrəsələrin yaradılması nəzərdə tutulub. Onun sözlərinə görə, mədrəsə məzunları Qafqaz Müsəlmanları İdarəsi tərəfindən məscidlərə imam və axund qismində təyin olunacaq.

Qeyd edək ki, 2009-cu ilin iyununda Milli Məclis xaricdə dini təhsil almış şəxslərin Azərbaycanda dini vəzifə tutmaları və ibadətlərə rəhbərlik etməklərini qadağan edən dəyişikliyi qəbul etmişdi. Bu da heç də əsassız deyildi. Məlum məsələdir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra savadlı dini kadrların yaradılması məsələsi ortaya çıxmışdı. Bu məqsədlə ilk olaraq QMİ-nin nəzdində əvvəlcə mədrəsə, 1994-cü ildə isə universitet yaradılıb. Bundan başqa, 1992-ci ildə TQDK xətti ilə imtahan verən bir qrup tələbə Türkiyənin müxtəlif universitetlərində ilahiyyat fakültələrində təhsil almaq üçün göndərilib. Paralel olaraq məhz Türkiyə Diyanət İşlər Başqanlığının təşəbbüsü və dəstəyi ilə BDU-da ilahiyyat fakültəsi yaradılıb. Bununla yanaşı, QMİ-nin təşəbbüsü və göndərişi əsasında azərbaycanlı tələbələr İran, İraq, Suriya, Misir, Liviya, Malayziya və digər daha bir neçə ölkənin İslam universitetlərinə təhsil almaq üçün göndəriliblər. Ancaq sonradan hökumət bu göndərişləri dayandırdı, azərbaycanlılar yalnız öz təşəbbüsləri ilə xarici ölkələrə ilahiyyat təhsili almağa getdilər. Bəlli olmuşdu ki, onların bəziləri, xüsusilə də İranın Qəzvin, Qum, Məşhəd və digər şəhərlərində pulsuz olaraq mədrəsə təhsili alıb vətənə dönən gənclər oranın yad ideologiyasına, fərqli dövlət modeli düşüncəsinə uyğun olaraq ölkədə təbliğatlar aparmaq, ölkəmizə gətirdikləri məzhəb, təriqət qarşıdurmaları yaratmaqla məşğuldurlar.

Təbii ki, qeyd etdiyimiz məsələni xaricdə dini təhsil alan bütün tələbələrə şamil etmək olmaz. Onların arasında kifayət qədər vətənpərvər, sağlam düşüncəli gənclər də var. Ekspertlər də bildirirdilər ki, mövcud problemi aradan qaldırmaq üçün qadağalar tətbiq etmək çıxış yolu deyil. Çıxış yolu ölkə daxilində dini təhsilin yüksək səviyyəyə qaldırılması, dini tədris edən yeni kadrların yaradılmasıdır. Və beləcə artıq hökumət bu məsələyə diqqət ayıraraq yeni mədrəsələrin açılması istiqamətində intensiv hazırlıq işlərinə start verdi.

Lakin indi ortaya digər məsələlər çıxır. Görəsən, Bakı İslam Universitetinin yerli dini kadrların hazırlanmasına kifayət qədər imkanı varmı? Yerlərdə yaradılacaq mədrəsələr lazımi səviyyədə kadr hazırlaya biləcəkmi?

**Mövzu ilə bağlı millət vəkili Fazil Mustafa "Yeni Müsavat"a açıqlama verib. Deputat qeyd edib ki, dövlətin bu istiqamətdə addımlar atması müsbət qarşılanmalıdır:** "Hesab edirəm ki, Azərbaycanın əhali potensialı elə də çox deyil və ona görə də bizdə bunu təmin etmək üçün imkanlar var. Amma bu imkanların doğru qiymətləndirmək lazımdır. Xaricdə təhsil almış insanlara şübhəli yanaşmaq olmaz. Onların da potensialından istifadə etmək lazımdır. Xüsusilə də Türkiyədə təhsil almış insanların hazırlıq səviyyəsindən müəyyən dərəcədə istifadə etmək lazımdır. Çünki bu insanların böyük əksəriyyətində vətənpərvərlik bizdəkindən nəinki az, hətta artıq olur. Ona görə də dinə bağlılıq, vətənpərvərlik tamamilə başqa bir yanaşma tələb edir. Ona görə də mədrəsələrin yaradılması müsbət haldır. Ən azı ölkə daxilində müəyyən dərəcədə ölkənin prinsiplərini, dövlətin maraqlarını nəzərdə tutaraq insanların yetişməsinə, onların başqa ölkələrin təsiri altına düşməməyinə şərait yaradacaq.

Amma bütövlükdə ilk növbədə din adamının savadlı olması vacibdir. Savadlı olması üçün də yüksək səviyyəli təhsilin, peşəkar müəllimlərin olmasına ehtiyac var. Bunu təmin etmədikdə müəyyən yarımçıqlıqlar ortaya çıxacaq və dini cəhalətə qarşı mübarizədə effekt verməyəcək. Bu baxımdan, məncə, bütün imkanları ölçüb-biçərək daha mütərəqqi, modern bir mədrəsə sisteminin qurulmasına çalışmaq lazımdır. Hər halda, dövlətin bu istiqamətdə müəyyən addımlar atması müsbət qarşılanmalıdır".

❑ **Xalidə GƏRAY**

# Niyə yaza və hesablaya bilmirik...

## Təhsil eksperti ana dili və riyaziyyatdan 2 alanların çoxluğunun səbəblərindən danışdı: "Bu, təlim prosesi ilə bağlıdır"

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) 16, 21, 25, 30 iyun tarixlərində respublikanın orta ümumtəhsil müəssisələrində mərkəzləşdirilmiş qaydada buraxılış imtahanlarının statistik nəticələrini açıqlayıb. İmtahanlarda ümumilikdə 104476 nəfər IX sinif şagirdi, 84589 nəfər XI sinif şagirdi iştirak edib. Ümumi orta təhsil bazasında (9 illik) imtahan verənlərin Azərbaycan dili fənnindən 20911 nəfəri (20.06%) 2, 47937 nəfəri (45.98%) 3, 21715 nəfəri (20.83), 13694 nəfəri (13.13) 5, Riyaziyyat fənni üzrə isə 26438 nəfəri (25.31%) 2, 39687 nəfəri (37.99%) 3, 19411 nəfəri (18.58%) 4, 18940 nəfəri (18.13) isə 5 qiymət alıb. Tam orta təhsil bazasında (11 illik) buraxılış imtahanı verən şagirdlərin isə Azərbaycan dili fənnindən 15486 nəfəri (18.34%) 2, 16512 nəfəri (19.56) 5, Riyaziyyat fənnindən 16038 nəfəri (18.96%) 2, 17026 nəfəri (20.13%) 5, Xarici dildən 19908 nəfəri (23.72%) 2, 17011 nəfəri (20.27%) 5, Kimya fənnindən isə 186 nəfəri (27.64%) 2, 42 nəfəri (6.24) isə 5 alıb.**



Statistika Azərbaycanda ana dili və riyaziyyat fənlərinin zəif qavranıldığını deməyə əsas verir. Bir sıra iddialara görə, 2 alanların sayı Təhsil Nazirliyinə düzgün göndərilməyib. Real statistika daha bərbaddır.

Maraqlıdır, niyə şagirdlərimiz yaza və hesablaya bilmir? Xüsusi olaraq bu iki fəndən bu cür bərbad göstəricinin psixoloji bir səbəbi varmı? Yoxsa buna səbəb bu fənni tədris edən müəllimlərin sahələrini yaxşı bilməməsidir?

**Təhsil Şurasının sədri, təhsil eksperti Əjdər Ağayev bunun psixologiya ilə bir əlaqəsi olmadığını dedi:** "Azərbaycanda hətta yazıb-oxumağı bilməyənlər də hesablamağı çox gözəl bilir. Bunun psixologiya ilə qəti əlaqəsi yoxdur. Bu, təlim prosesi ilə bağlıdır. Azərbaycan dili üzrə şagirdlərin ibtidai sinifdən başlayaraq biliklərinin zəifliyi *( təbii ki, hamını demirəm, orada 4, 5 alanlar da var)* bu cür nəticələr ortaya çıxarır. Biz bəzən deyirik ki, Azərbaycan dili müəllimləri zəifdir. Bu da düzdür, amma ibtidai sinif müəllimi savadlı olsa, dili öz proqramı çərçivəsində mükəmməl öyrətsə, bazası mükəmməl olsa, bundan sonra gələn siniflər lazımi bilikləri öyrənə bilər. Deməli, bizim ibtidai sinif müəllimlərimizin xeyli bir qismi hələ riyaziyyatı öyrətməkdə çətinlik çəkir. Bunların özlərini mükəmməlləşdirmək lazımdır. İkinci tərəfdən, riyaziyyat və Azərbaycan dilinin oxşarlığı var. Riyaziyyatda təfəkkür, əqli, məntiqi araşdırma tələb edilir. Dil də riyaziyyatın sözlər, hərflər üzrə ifadəsidir. Yəni hər ikisində təfəkkür və yaddaş, vərdiş, bacarıqlara yiyələnmə mühüm rol oynayır. Görünür, riyaziyyat və Azərbaycan dili müəllimlərimiz də bu tələbata cavab verən səviyyədə deyil. Ona görə də onların məzunlarının xeyli bir qismi - təxminən 18-20 faizi qeyri-kafi qiymət alır. 5 ballıq sistem ona görə qoyulub ki, tarixən 5 alan da olub, qeyri-kafi alan da. Yəni fəaliyyətin axırında qeyri-kafi almaq da təbiidir. Amma bu gün bizi narahat edən onun çoxluğudur. 11 il oxuyasan və sonda kafi alasan, bu, insanı təəccübləndirir. Ola bilər ki, kafi almağa hər hansı bir subyektiv meyar səbəb olsun. Yəni narahatlıq, həyəcan, müəllim-şagird münasibətləri imtahan nəticələrinə təsir edə bilər. Amma bunun sayının çox olması narahatlıq törədir. Bu amillərdən əlavə, bizim məzun olacaq şagirdlərimiz arasında hazırlıq səviyyəsi aşağı olanlar da var".

**Ə.Ağayev bunun bütün məktəblərə şamil olunmadığını bildirdi:** "Bu gün məktəblər bir-birindən fərqlənir. Yaxşı liseylərimiz, gimnaziyalarımız var. Onlar istər tədris prosesində, istərsə də tədrisdən sonra repetitorluq yolu ilə məzunların 80-90 faiz ali məktəbə qəbulunu təmin edir. Amma elə məktəblər var ki, xüsusən də regionlarda, onlarda tədrisin səviyyəsi, hətta idarətmə aşağıdır. Bəzən fənn müəllimi, tutaq ki, riyaziyyat müəllimi olmalıdır, amma riyaziyyatı fizika, kimya müəllimi deyir. Çünki müəllim çatışmır. Yerdəki məktəb rəhbərliyi də çatışmayan müəllimin sifarişini vermir. Ona görə vermir ki, kiməsə əlavə saatlar verir. Qəbul komissiyası yəqin ki, zəif nəticəni göstərən məktəblərin hansı olduğunu bilir. Düşünürəm ki, fərdi olaraq bu məsələlər təhsil şöbələrində, icra hakimiyyətlərində, təhsillə bağlı əlavə qurumlarda müzakirə olunmalıdır. Bunun səbəbləri aşkarlanmalıdır. Bu səbəblərə sosial, psixoloji, pedaqoji, metodik, iqtisadi təsirlər də var. Bunlar araşdırılmalı və onların aradan qaldırılması üçün tədbirlər görülməlidir. Həyata keçirilən tədbirlərin də reallığı nəzarətdə olmalıdır. Tədbirləri müəyyənləşdirir, həyata keçirmək istəyirlər. Amma bəzən bu alınmır. Məsələn, rayon mərkəzindən 120 kilometrdən artıq məsafədə məktəb yerləşir və ora heç bir müəllim getmir. Gənc müəllimi ora göndərirlər. Maaşı bir qədər yüksək olur. Müəllim bu mühitdə yaşamalı və o məktəbi qaldırmalıdır. Amma bəzi məktəblərdə həmin adamları qəbul edirlər, dərsi də salırlar 1 və 5-ci günə. Həftədə iki dəfə məktəbə gəlib dərs deməklə o müəllim mühitə qaynayıb-qarışa bilməz. Müəllimin borcu yalnız dərs demək deyil. O, dərnək yaratmalı, tədbir keçirməlidir. Bunlar olmur. Yəni bu cür nəticələri doğuran səbəblər çoxdur. Bu səbəblər araşdırılmalı, aradan qaldırılmalıdır. Bu araşdırma üçün maliyyə ayrılmalıdır, amma ayrılmır. Bu gün deyirlər ki, oxuyan oxusun, oxumayan özü bilər, kapitalizmdir, öz həyatını özü qursun. Nəzərə alınmır ki, bizim insanlar hələ o səviyyəyə gəlib çatmayıb ki, öz həyatını özü qura, bunun dərkinin nəticələrini görə bilsin".

❑ **Günel MANAFLI**

# DYP-dən bayram günlərində yola çıxanlara xəbərdarlıq

## Vaqif Əsədov: "Qaydalara əməl edin ki, bədbəxt hadisələr baş verməsin"

**"Bayram günlərində həm sürücüləri, həm də piyadaları yol hərəkəti qaydalarına əməl etməyə çağırıram. Nizam-intizama riayət etməklə hadisələri sıfıra endirə bilərik". Bu sözləri Daxili İşlər Nazirliyi (DİN) Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin (BŞDYPİ) İctimai qurumlarla əlaqə bölməsinin rəisi Vaqif Əsədov "Yeni Müsavat"a açıqlamasında bildirib. DYP sözçüsü ictimaiyyətə çağırış edərək bayram günlərində ehtiyatlı olmağa səsləyib və yol polisinin də gücləndirilmiş iş rejimində olacağını vurğulayıb:**



"Təhlükəsizliyin təmin edilməsi Dövlət Yol Polisi əməkdaşlarının ən önəmli vəzifəsidir və bu istiqamətdə zəruri tədbirləri mütəmadi həyata keçiririk. DYP əməkdaşları həm adi günlərdə, həm də bayram günlərində yol-qəza hadisələrinin qarşısının alınması üçün çalışır. Nəzarəti gücləndiririk ki, bədbəxt hadisələrin sayını aşağı salaq. Ən azından bu bayram günlərində paytaxtdan kənarda, bölgələrə doğru hərəkətin artdığını nəzərə alıb həmin ərazilərdə nəzarəti gücləndirəcəyik. Sürət həddinin aşılmasına, sükan arxasında mobil telefonla danışmağa, diqqəti yayındıra biləcək sair əməllərin edilməsinə qarşı tədbirlərimizi davam etdirəcəyik".

**Sürücülərə səslənən Vaqif Əsədov onları sürət həddini aşmamağa çağırıb:**

"Mən fürsətdən istifadə edib sürücülərə səslənirəm ki, bu bayram günlərində bölgələrə, Bakı ətrafındakı bağ evlərinə gedərkən sürət həddinə fikir verin, ara məsafəsinə diqqət yetirin, diqqəti yayındıra biləcək hərəkətlər etməyin. Yol ayrıclarını keçərkən mütləq diqqətli olun, tələsməyin və qarşı hərəkət zolağına çıxmağın təhlükəli olduğunu nəzərə alın. Sürücülər nəzərə alsınlar ki, qeydə alınan yol-nəqliyyat hadisələrinin əksəriyyəti sürət həddinin aşılması ilə bağlıdır.

Piyadalar da yalnız onlar üçün ayrılmış yolla hərəkət etməlidirlər, yolu keçərkən piyada zolaqlarından, keçidlərdən istifadə etməlidirlər. Piyadalar yaxınlaşmaqda olan nəqliyyat vasitəsinin sürətini nəzərə almalıdırlar. Unutmaq olmaz ki, «Yol hərəkəti haqqında» Qanunun 40-cı maddəsi piyadaların vəzifələrini müəyyən edir. Bu mənbənin tələbi pozulduqda piyadalar məsuliyyətə cəlb edilir. Əminliklə deyə bilərəm ki, nizam-intizama əməl etməklə hadisələri sıfıra endirə bilərik.

Yay mövsümündə yaxşı olar ki, sürücülər xüsusi kondisioner sistemi olan avtomobillərdə hərəkət etməyə üstünlük versinlər".

❑ **Nərgiz LİFTİYEVA**

# YAP-ın sabiq MNTK sədri oğlunu azad etdirdi

## Məhəmməd Məmmədovun oğlu 3 milyon dollar qarşılığında Ukraynada girovluqdan qurtulub

**Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Nəzarət-Təftiş Komissiyasının və "Aztelekom" MMC-nin sabiq rəhbəri, hazırda həbsdən olan Məhəmməd Məmmədovun Ukraynada naməlum şəxslər tərəfindən girov götürülmüş oğlu Araz Məmmədov, nəhayət, azadlığa buraxılıb. Ukraynada fəaliyyət göstərən Azərbaycan diasporundan verilən məlumata görə, M.Məmmədovun oğlu A.Məmmədov 4 aya yaxın girovluqda saxlanılıb. Şevçenko adına Kiyev Dövlət Universitetinin tələbəsi olan Araz Məmmədovu bugünlərdə 3 milyon dolların qarşılığında girovluqdan azad ediblər.**

Qeyd edək ki, son zamanlar Ukraynada həmyerlilərimizin oğurlanaraq girov saxlanması, sonradan isə pul qarşılığında azad edilməsi adi hal alıb. Ukraynanın paytaxtı Kiyevdə iyunun 28-də bir neçə ay əvvəl naməlum şəxslər tərəfindən girov götürülmüş, 1975-ci il təvəllüdlü azərbaycanlı iş adamı Elsevər Alxazov şəhər ətrafında girov saxlanıldığı yerdən təsadüf nəticəsində qaçıb. İş adamının yaxınlarının modern.az saytına verdiyi məlumata görə, mart ayında girov götürülən E.Alxazovun qaytarılması üçün 1 milyon dollar tələb olunurdu. Artıq onun qardaşları və dostları bu məbləğin ödənilməsinə hazırlaşdıqları zaman qəflətən iş adamı Kiyevdə naməlum nömrədən qardaşına zəng edərək şəhərdəki "Bulvar Şevçenko" adlı yerdə olduğunu və təcili gəlib onu oradan aparmasını istəyib. Son bir ildə Ukraynada 20-dən çox azərbaycanlının oğurlandığı bildirilir və Azərbaycanın bu ölkədəki səfirliyi yerli hüquq-mühafizə orqanlarına bununla bağlı rəsmi müraciət edib.

Xatırladaq ki, "Aztelekom" MMC-nin sabiq baş direktoru Məhəmməd Məmmədov ötən ilin noyabrında həbs olunub. M.Məmmədov Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur. Baş direktorla birlikdə "Aztelekom"un daha bir neçə vəzifəli şəxsi də saxlanılıb.

❑ **E.HÜSEYNOV**



# Qarabağ əlili sığınmağa ev istəyir




**Məcburi köçkün, Qarabağ müharibəsi əlili Zahid Qəribov redaksiyamıza gələrək başına gələnləri danışıb. Z.Qəribovun sözlərinə görə, 1988-ci ildə Ermənistandan deportasiya olunub. I Qarabağ savaşında müxtəlif bölgələrdə döyüşlərdə iştirak edib və Kəlbəcər rayonunun müdafiəsi uğrunda gedən qanlı döyüşlərdə qəlpə yarası alaraq "baş beyin travmatik xəstəliyi, kəskin asteno nevrotik sindrom" diaqnozu ilə III qrup əlillik alıb.**

22 fevral 1995-ci ildə Bakı Səbayel Rayon İcra Hakimiyyəti başçısının 555 saylı sərəncamına əsasən bu rayon ərazisindəki A.Məmmədov küçəsində yerləşən sahəsi 14, 0 kv.m olan 93 saylı evin 85 nömrəli mənzil ailəsi ilə birlikdə ona sığınacaq kimi verilib. Lakin sığınacaq mənzil onun adına olsa da dadı başqasına qismət olub: "Mənzil mənə verilsə də, tez bir zamanda Füzuli rayonundan məcburi köçkün düşmüş Quliyeva Zəhranın ailəsi tərəfindən zəbt olunub. Səbayel Rayon Məhkəməsinin 18 fevral 1997-ci il tarixli qərardadına əsasən onların ailəsi ilə birlikdə mənə məxsus mənzildən çıxarılmasının Füzuli rayonu işğalçılıqdan azad edilənədək dayandırılmaslı qət edilib. Hazırda mən 4 nəfər ailə üzvü ilə birlikdə demək olar ki, küçələrdə qalmışam. Axı nə qədər maddi imkansızlıqdan kirayə haqqı ödəyə bilmədiyim üçün kimlərinsə himayəsinə sığınacam?!

Səbayel Rayon İcra Hakimiyyəti başçısının 14 mart 2006-cı il tarixli , 89 saylı sərəncamına əsasən mənzil növbəsində dayanmışam. Amma 10 ildir bu məsələ hələ ki öz həllini tapmayıb.

İki övladım var. Hazırda fəhlə işləyirəm, başqa yerdən də maddi gəlirimiz yoxdur. Manatın devalvasiyasından sonra ailəmiz daha da ağır duruma düşüb. Xahiş edirəm ki, aidiyyəti orqanlar bu məsələdə mənə köməklik göstərsinlər".

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# Bu gecə ìlk yarìmfìnaldır: ìkì qoçun başı...Lìonda



**Bu gecə saat 23:00-da "Avro-2016"da ilk yarımfinal oyunu keçiriləcək. "Stad-de Lion"da Uels və Portuqaliya milliləri qarşılaşacaq. Oyunu isveçli Yonas Erikson idarə edəcək. Portuqaliya Avropa çempionatı tarixində artıq dördüncü dəfədir ki, Avropa çempionatının yarımfinalında oynamaq haqqı qazanır. Ronaldonun komandası 2004-cü ildə Portuqaliyada keçirilən Avropa çempionatının finalında uduzub. O vaxtdan da Portuqaliya Avropa çempionatında final oynamaq arzusunu gerçəkləşdirə bilmir.**

## Bu gecənin daha bir intriqası da var: bu çempionatın ən yaxşılarından olan Beyl "Real"da komanda yoldaşı Ronaldoya qarşı oynayacaq

Portuqaliya və Uels beynəlxalq turnir səviyyəsində ilk dəfə bu gün axşam qarşı-qarşıya gələcəklər. Bundan əvvəl üç dəfə yoldaşlıq görüşündə qarşılaşıblar ki, bunların ikisində Portuqaliya, birində isə Uels millisi qalib gəlib. İlk görüş hələ uzaq 1949-cu ildə Portuqaliyada baş tutub və prineylilər 3:2 hesabı ilə rəqiblərini məğlub edib. İki il sonra Kardiffdə meydan sahibləri üstün olub:1:2. Son görüş isə 2000-ci ildə baş tutub ki, burda da portuqaliyalılar rəqiblərini 3:0 məğlub edib. Beləliklə, 16 il sonra ilk dəfə bu axşam qarşılaşacaq rəqiblər finala vəsiqə üçün yarışacaqlar.

Portuqaliya haqda bu çempionatda nə qədər tənqidlər yazılsa da, komanda yarımfinala gəlib çıxıb. Bu, "Avro-2016"nın şəxsən bəndəniz üçün ən pis sürprizidir. Çox yaxşı, keyfli bir çempionatda bunca ədalətsiz bir yarımfinalçı... Portuqaliya azarkeşlərini yaxşı başa düşürəm, əsas nəticədir. Nəticə də ki, var. Komanda bu çempionatda əsas vaxtda hələ udmayıb, amma komandanın baş məşqçisi "çempion olmaq istəyirik" deyir. Allahın olsun Santuş... Bu, çempionatda Macarıstan, Xorvatiya, İspaniya, Belçika, Slovakiya, İtaliya, nəhayət, İslandiya kimi komandaların oyunu ilə müqayisədə Portuqaliya komandadırmı? Elə ilk dəfə Avropa çempionatında iştirak edən Uelslə müqayisə edilə bilərmi Portuqaliya? Portuqaliyada keçirilən 2004-cü il Avropa çempionatını xatırlayırsızmı? Antifutbol oynayan Yunanıstan finalda Ronaldonun komandasına 1 topla qalib gəldi və çempion oldu. Çox da mənasız bir çempionat kimi yadda qaldı. Niyə? Həm də o cansız finala görə, həm də o mənasız çempionluğa görə...



"Avro-2016" bəlkə də üç oyun istisna olmaqla, gözəl və gərgin mübarizədə keçdi. Yarımfinalı haqq edənlər yarıyolda qaldı, bir Portuqaliya bura gəldi. Mən bunu ədalətsiz hesab edirəm. Amma daha böyük ədalətsizlik Portuqaliyanın bu cür oyunla finala çıxması və Santuşun istədiyinin olmasıdır. Bəlkə bu gün meydanda başqa Portuqaliya olacaq, bəlkə Ronaldo qapıları topla dolduracaq, onu indidən söyləmək də olmur. Amma ən zəif hesab edilən komandalara belə qrupunda qalib gələ bilməyən "Avropa braziliyalıları"nın belə qəfil "dirilməsi"? Gözləyək...

Uels bütün çempionat ərzində yaxşı oyun göstərib, kişi kimi oynayıb. Portuqaliya bu gecə onları da cəhənnəmə göndərərsə, "Avro-2016"nın bütün dadı qaçmış olacaq. Portuqaliya finalda? Adamın inanmağı gəlmir. Amma bu komanda gör haradan və necə gəlib...

Bu gecənin daha bir maraqlı intriqası da var. Bu çempionatın ən yaxşılarından olan Qaret Beyl "Real"da komanda yoldaşı Ronaldoya və Pepeyə qarşı oynayacaq. Beyl oyun öncəsi verdiyi açıqlamada Portuqaliyadan və Ronaldodan danışıb: "Ronaldonun nələr edə biləcəyini bilirik. O, möhtəşəm oyunçudur. Ancaq






# РОНАЛДУ ПРОТИВ БЭЙЛА

КРУТИЗНА КРИШТИАНУ

**«ЗОЛОТОЙ» ХЕТ-ТРИК**

Роналду трижды выигрывал «Золотой мяч» (2008, 2013, 2014) и еще пять раз занимал в опросах 2-е места. Бэйл трижды попадал в списки номинантов, но выше 9-го места (2013) не поднимался.

**ЛУЧШИЙ НА РОДИНЕ**

Кришти является рекордсменом по матчам за сборную Португалии (131) и лучшим бомбардиром в истории «избранных» (60 голов). У Бэйла за Уэльс — 60 игр (на 36 меньше, чем у главного гвардейца Невилла Саутхолла) и 22 гола (на 6 отстает от топового снайпера валлийцев Иана Раша).

РОНАЛДУ
**31 ГОД**

НА ЕВРО-2016
**2 ГОЛА+1 АССИСТ**

**ГЛАВНЫЙ СНАЙПЕР ЛЧ**

Роналду — лучший бомбардир в истории еврокубков (96 голов) вообще и Лиги чемпионов в частности (94 гола). У Бэйла эти показатели намного скромнее — 16 и 12 голов соответственно.

**ДЕНЬГИ И «СКАКУНЫ»**

Зарплата Роналду в «Реале» составляет 20,5 млн евро в год. Оклад Бэйла этим летом возрастет с 9 до 18 млн евро. В автопарке Кришти — более 20 машин, самая дорогая — Bugatti Veyron (3,4 млн евро). У Гарета в гараже — лишь 6 «железных коней», цена самого дорогого — Lamborghini — «всего» 500 тыс. евро

**И В БРОНЗЕ, И В ВОЗДУХЕ**

В феврале 2010 г. к 25-летию Роналду в Мадейре был открыт памятник футболисту. В этой связи площадь Плаза де Рамалес, где он установлен, даже на один день была переименована в Плаза де Роналду. Еще одна статуя Кришти установлена на его родном острове Мадейра. Тогда как у Бэйла пока нет ни одного памятника. Как и самолета. А у Криштиану есть! Минувшей осенью он прикупил двухмоторный Gulfstream G200 бизнес-класса за 19 млн евро. На борту лайнера, способного перевозить до 10 пассажиров, есть отдельные ванные комнаты, доступ к интернету, телефон, факс, микроволновка и холодильник для напитков.

**САМЫЙ ДОРОГОЙ «ТОВАР»**

В 2013-м «Реал» заплатил «Тоттенхэму» за Бэйла 85,3 млн фунтов (100 млн евро) — мировой трансферный рекорд. Прежним достижением владел Роналду — 94 млн евро.

КРУТИЗНА ГАРЕТА

**НА ДВА ГОДА РАНЬШЕ**

Бэйл дебютировал за сборную Уэльса в 16 лет и 10 месяцев (май 2006), а первый гол забил в 17 лет и 3 месяца (октябрь 2007). Роналду дебютировал за сборную Португалии в 18,5 лет (август 2003 года), а впервые забил в 19 лет и 4 месяца (июнь 2004).

БЭЙЛ
**26 ЛЕТ**

НА ЕВРО-2016
**3 ГОЛА**

**40% И 40 «ХОЛОСТЫХ»**

Бэйл — первый за 12 лет игрок, забивший во всех матчах группы на Евро. Два гола он забил со стандартов (из пяти попыток). А Роналду на ЧЕ довел свою «рекордную» серию незабитых штрафных подряд до 40.

**РЕБЕНКОМ БОЛЬШЕ**

Бэйл уже 12 лет неразлучен со своей школьной подругой Эммой Рис-Джонс. У них две дочери: 3-летняя Альба Вайолет и 3-месячная Нава Валентина. А единственный сын Роналду — 6-летний Криштиану-младший — рожден от суррогатной матери. Постоянной спутницы жизни у КР нет.

**ГОРОД ЕГО ИМЕНИ**

Городок Бала (Bala) в северовалийском графстве Гуинет временно изменил название (на Bale), став [illegible] населенным пунктом лидера сборной Уэльса. С этой целью были переделаны все основные таблички и указатели. «Бэйл — мировая звезда, и наш город тоже должен быть отмечен на карте мира», — говорят члены горсовета. Решение о возвращении первоначального названия еще не принято — предварительно Бала останется Бэйлом вплоть до прощания сборной Уэльса с Евро. А сам Гарет уже получил приглашение посетить город после возвращения с турнира.

Y Bala

Y Bale

МАТЕРИАЛЫ ПОДГОТОВИЛ ЭДУАРД КИНЗЕРСКИЙ



biz komanda olaraq nə edəcəyimizi düşünürük, digər şeylərlə maraqlanmırıq. Portuqaliyadan çəkinmirik. İndiyə kimi qarşılaşdığımız komandaların da yaxşı oyunçuları var idi".

Beyl Ronaldo ilə rəqib kimi qarşılaşacağı haqda düşünmədiyini deyib: **"Onun hazırda nələr hiss etdiyini bilmirəm. Öz adımdan deyə bilərəm ki, rahatam. "Real"da onunla birlikdə oynamaqdan zövq alıram. Ancaq meydandan kənarda çox danışmırıq, o, özəl həyatını yaşayır".** "Ronaldo ilə qarşılaşmadan nə gözləyirsən" sualını "Real"ın futbolçusu belə cavablandırıb: **"Bu, Ronaldo - Beyl yox, Portuqaliya - Uels qarşılaşması olacaq".** Yada salaq ki, Ronaldo, Pepe və Beyl bu mövsüm "Real"ın Çempionlar Liqasında qələbəsinə birgə seviniblər. Belə iddialar da var ki, Beyllə Ronaldonun klubda münasibətləri yaxşı deyil, onlar arasında gizli rəqabət var.

**Uels yığmasının kapitanı Eşli Ulyams** da deyib ki, həm Beyl, həm Ronaldo dünyanın ən güclü futbolçuları sırasındadırlar: **"Hamı bu iki oyunçunun qarşıdurmasını izləyəcək, bizim üçün isə bu Uels-Portuqaliya oyunudur. Mən heç vaxt Ronaldoya qarşı oynamamışam. Amma bu məndə heç bir əsəb gərginliyi yaratmır. Çünki bu da bir sınaqdır".**

Uels millisinin baş məşqçisi Kris Koulmanın oyunçularının bu gün hansı taktika ilə meydan çıxaracağı maraqla gözlənilir. Futbol mütəxəssisləri iddia edir ki, Uels bu gün əsasən Portuqaliyanın mərkəz müdafiəsindən rəqib qapısında şansını axtaracaq. Çünki Portuqaliyanın mərkəzi müdafiəsinin əsas oyunçuları Pepe və Rikardo Karvalyo kifayət qədər yaşlanıblar. Ehtimal edilir ki, Karvalyo ümumiyyətlə bu gün oyuna çıxmaya bilər ki, bu da Portuqaliya üçün ciddi itki hesab oluna bilər. Təəssüf ki, bugünkü qarşılaşmada Uels millisinin əsas ümidlərindən biri Remzi də iştirak etməyəcək. Belçika ilə oyunda yarımmüdafiəçi ikinci sarı vərəqə alaraq cəzalı duruma düşüb. Bu da Portuqaliyanın işinə yarıya bilər. Maraqlıdır ki, bukmeykr kontorları da bu oyunda üstünlüyü yenə Ronaldonun komandasına verirlər. Bunu isə Portuqaliyanın daha təcrübəli olması ilə izah edirlər. Ronaldoya gəlincə, onun aktivində hələ ki Macarıstanın qapısına vurduğu iki qol var. Bugünkü qarşılaşmada onun da "Qızıl buts" uğrunda mübarizəyə qoşulmaq ehtimalı ola bilər. Amma o gərək heç olmasa 2 top vursun...

Ən sonda. Uels millisinin futbolçusu Co Ledli toyunu təxirə salıb. Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə, buna onun milli komandasının "Avro-2016"da uğurlu çıxışı səbəb olub. C.Ledli yaxşı çıxışı ilə seçilən Uels millisinin yarımfinalda Portuqaliya ilə oyununda iştirak etmək üçün bu addımı atıb. Ailə xoşbəxtliyi hələ gözləyə bilər...

Bu gecə kimin xoşbəxt olacağını demək doğrudan da çətindir...

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 147 (6468) 6 iyul 2016



## İrlandlar alkoqol həvəskarı olduğu üçün müəlliməni işə götürmədilər

İrlandiya sakini Keti Mulrennanın Seulda müəllimə işləmək müraciətinə qəribə əsaslarla etiraz edilib. Ona bildirilib ki, mənsub olduğu xalqın alkoqolizmə meyli olduğu üçün müraciəti rədd edilir. 26 yaşlı gənc müəllimə bu iş elanını saytlardan birində tapıb və dərhal müraciət edib. Öz CV-sini məktəbə göndərən müəlliməyə bir ay sonra elektron məktub vasitəsilə rədd cavabı verilib. Məktubda açıq mətnlə yazılıb ki, işverən irland xalqından heç kimlə işləmək istəmir, çünki sonuncuların alkoqola meylliliyi daim sübut edilir. Halbuki rədd cavabı alan müəllimə daha öncə Barselonada, Oksfordda və Əbu Dabidə dərs deyib. Son olaraq isə Seulda başqa bir iş tapıb. Lenta.ru saytı xəbər verir ki, qadın öncə bu cavabdan bərk təəssüf hissi keçirib. Amma daha sonra qərar verib ki, kampaniyanın etirazı irlandların ünvanına yönəlmiş uğursuz bir zarafatdır. Müəllimə təhsil müəssisəsi rəhbərliyi ilə yazışmasını internetdə yayıb. Müəssisənin adı isə açıqlanmır.

## Hamilənin evində Wİ-Fİ olmamalıdır



"Forbes" jurnalı internet və cib telefonları ilə bağlı yeni bir araşdırma yayımlayıb. Araşdırmaya görə, xərçəngə səbəb olan 250 maddə arasında televizor, radio, mikrodalğalı soba, cib telefonu və kablosuz internet(Wi-Fi) yer alır. Alimlər məsləhət görür ki, uşaqları mümkün qədər bu dalğalardan qorumaq lazımdır. Elektromaqnit dalğalara uzun müddət məruz qalan insanlarda xərçəng riski artır, başqa xəstəliklər yaranır. İnsanların məruz qaldığı elektromaqnit dalğaların xərçəngə keçmə dövrü isə 30 il və daha çox hesablanır. "Wi-Fi bizi yavaş-yavaş öldürürmü" başlıqlı məqalə yazan alim Mark Gibbsin fikrincə, 50-100 il sonra dönüb geriyə baxanda cib telefonu və kablosuz internetin insanlıq tarixinin ən böyük sağlıq krizinə səbəb olmasına təəccüblənə bilərik. Riskin ən yüksək olduğu dönəm isə körpənin hələ ana bətnində olduğu dönəmdir. Hamilələrin evində Wi-Fi olmamalı, cib telefonu isə onlardan uzaqda olmalıdır.

## Qız müalicə olunmaq istəmirdi, məhkəmə qərar çıxardı

Amerikanın Konnektikut ştatında məhkəmə 17 yaşlı qızın məcburi qaydada kimyəvi müalicə alması üçün qərar çıxarıb. Bu barədə lenta.ru saytı xəbər verir. Kassander soyadlı qıza xərçəng diaqnozu qoyulandan sonra ona kimyəvi müalicə kursu yazılıb. Gənc qız isə hesab edir ki, bu müalicə onun səhhətinə daha böyük zərbə vuracaq, nəinki xəstəliyi. Qızını atasız, təkbaşına böyüdən anası Ceki Fortin isə bildirib ki, qızının mövqeyi ilə razıdır və onu dərmanla zəhərləməyə icazə verməyəcək. Kassandra özü isə iki kimyəvi müalicə prosedurundan sonra tibb mərkəzindən qaçıb. Mərkəzin rəhbərliyi onunla bağlı öncə valideynlərinə, ardınca isə məhkəməyə müraciət edib. Həkimlər bildirib ki, əgər xəstə onların tövsiyələrinə əməl etsə, sağalma şansı 80-85 faizdir. Məhkəmə də son nəticədə xəstəxananın tələbini yerinə yetirən qərar çıxarıb. Ana-qız isə konstitusiya hüquqlarının pozulduğunu iddia edərək, qərardan şikayət ediblər.





## Rahib dini moizəni restoranda oxudu

Alabama ştatındakı Birmenqem şəhərindəki fast food restoranlarından birində kilsə xidməti göstərilib. Rahibin nitqinə qulaq asmaq üçün kafeyə yığışan 50 nəfər bu prosesdən olduqca zövq aldıqlarını bildiriblər. Rahib deyib ki, fast food restoranında moizə oxumaq onun ideyası olub: "İstəyirdim ki, kilsəyə gəlməyi tərcih etməyən insanları bu yolla cəlb edim. İsus siz hara gedirsizsə, ora gəlir. O, bizi eşidir, harada olmağımızdan asılı olmayaraq".

Moizəni dinləmək üçün restorana gələnlər masa arxasında əyləşiblər. Onların bir neçəsi menyunu vərəqləyiblər. Baxmayaraq ki, dini mərasim zamanı kafenin işi tamamən dayandırılmışdı. Bundan başqa, restoran rəhbərliyi medianın ciddi marağını nəzərə alaraq, video və foto çəkilişləri qadağan edib. Rahibin moizəsi 45 dəqiqə çəkib. Səhər saat 9.45-dən başlanan moizə 10.30-da yekunlaşıb. Saat 11.00-dən sonra restoran əvvəlki iş rejimində fəaliyyətini davam etdirib.




**QOÇ** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün şanslarınız var. Taleyinizdə əhəmiyyətli rol oynaya biləcək adamlarla əlaqələri dərinləşdirin. Bu gün səfərə çıxmaq da uğurludur.

**BUĞA** - Bir çox məsələlərdə səhvlərə yol verirsiniz. Özünüzə aludə olmayın. Bəzən ətrafınızdakılardan məsləhət almağı da unutmayın. Axşamüstü maraqlı görüşlərin iştirakçısı ola bilərsiniz.

**ƏKİZLƏR** - Gün ərzində ovqatınız nataraz olsa da, qarşınızda duran vəzifələrin öhdəsindən gələcəksiniz. Günün ikinci yarısında isə şəxsi büdcənizdə müəyyən qədər artım ola bilər.

**XƏRÇƏNG** - Qarşılıqlı münasibətlər baxımından uğurlu olsa da, maddi cəhətdən mübahisəli bir gün yaşayacaqsınız. Özünüzü maksimum təmkinli aparın. Haqqınızı qanunlar çərçivəsində tələb edin.

**ŞİR** - Reallıqdan uzaq düşməyin. Bütün planlarınızı yalnız xəyalınızda reallaşdırmayın, konkret fəaliyyətə keçin. Dünəndən bəri neqativ Ay bürcünüzdə olduğundan mübahisələrə yol verməyin.

**QIZ** - Qarşılıqlı əlaqələrdə tədbirli olmağa çalışın. Əks təqdirdə, müsahibləriniz tərəfindən aldadıla bilərsiniz. Qarşınızda gözəl perspektivlər durur. Odur ki, ruh düşkünlüyündən qurtulun.

**TƏRƏZİ** - Son zamanlar cidd-cəhdlərinizin boşa çıxması sizi məyus etməməlidir. Çünki hər kəsin bir şansı var. Siz də gözləməlisiniz. Bu günsə yalnız adi işlərin həlli ilə məşğul olmalısınız.

**ƏQRƏB** - Fəaliyyətlə bağlı gərginliyiniz mümkündür. Yaxşı olar ki, bütün vacib işlərinizi təxirə salasınız. Riskli pul sövdələşmələrindən, məxfi danışıqlardan uzaq olmağa çalışın.

**OXATAN** - Uğurlu nəticəsinə tam əmin olmadığınız məsələlərə girişməyin. Yoxsa xoşagəlməzliklə qarşılaşacaqsınız. Bu təqvimdə kənardan kiminsə məsləhətilə addım atmamalısınız.

**OĞLAQ** - Bəxtinizdə kifayət qədər uğurlu bir tarix var. Əzmkarlığınızı artırmaqla bu müvəffəqiyyəti özünüzə və özünüzü ona yaxınlaşdıra bilərsiniz. Axşamsa qonaq getməyə çalışın.

**SUTÖKƏN** - Təcrübəli insanların köməyinə ehtiyacınız olduğundan Göy qübbəsi sizə kömək göstərəcək. Odur ki, ruh düşkünlüyünə qapılmayın. Sənədlərlə bağlı problemləri aradan qaldırın.

**BALIQLAR** - Səfərlər planınız varsa, onu bəri başdan təxirə salın. Çünki ulduzlar bu təqvimdə sizə kifayət qədər ciddi işlər həvalə edəcək. İşgüzar sövdələşmələrdə sizi müvəffəqiyyət gözləyir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yaponlar ölmədən qəbirə girirlər



Ən əcaib xidmətlər yaponlardan çıxır. Bunlardan ən sonuncusu The End of Life - həyatın sonu adlanır. Bu xidmət sayəsində yaponlar ölümə, daha dəqiq desək, dəfn mərasiminə hazırlaşırlar. Təbii ki, yaponlar özlərinin bər-bəzəkli qəbiristanlıqlarında əbədi yuxuya getməyə tələsmirlər. Amma dəfn mərasiminin bütün kədərli qayğıları mərhumun yaxınlarının boynuna düşməsin deyə firmalardan biri ilginc xidmət təklif edib. Hər bir şəxs özünün dəfn mərasiminə hazırlaşa bilir. Daha dəqiq desək, bu prosesə öncədən hazırlaşmaq mümkündür. Dəfn mərasiminin bütün atributlarını öncədən hazırlamaq olar: qəbir, məzar və sair. Yaponlara "tunelə girmədən öncə" nələr etmək lazım gəldiyini seminarda öyrədirlər. Bunu isə ölkənin bu sahə üzrə ixtisaslaşmış kampaniyası olan "Aeon Co" həyata keçirir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750



# Para dili

Zamin HACI
zaminhaci@mail.ru

**Öncə uca millətimizi və sevgili xalqımızı Monteneqro adlı dövlətə kredit verməyimiz münasibətilə səmimi qəlbdən qutlayıram. Siz kredit götürüb həkimə, müəllimə, polisə, şkaf qayırana verirsiniz ki, birtəhər bu cəngəllik şəraitində sağ qalasınız, diplom alasınız, uşaq evləndirəsiniz, nəsliniz davam etsin. Sonra da o krediti göyün yeddinci qatına qalxan faizlərinə görə, Keçəl ləqəbli xəzinədarın devalvasiyaları üzündən ödəyə bilməyəndə kirimişcə tövləyə keçib özünüzü asırsınız. Nəticədə kənd təsərrüfatımıza da ziyan dəyir, çünki yazıq inəklər asılmış adam görəndə süddən kəsilirlər. Ancaq yapistlər həmin bu adını da düz-əməlli bilmədiyimiz Monteneqroya 175 milyon avro kredit verəcəkdir.**

Əlbəttə, qurdalasan o krediti Monteneqroda alan şirkətin elə bu yapistlərə məxsus olması bilinəcəkdir. Son illər bu sxemlə işləyirlər. Bir şirkəti Vircin adasında açırlar, ordakı şirkət Panamada filial açır, Panamadakı Britaniyada, Britaniyadakı təzədən qayıdıb Panamada, o da bu dəfə Azərbaycanda şirkət düzəldir. İzi azdırırlar - yiyəsi bilinməsin deyə. Biz hesab edək bu dəfə kredit doğrudan Monteneqroya verilir. Bəs bu bizim haramıza yaraşır? Axı elə bu saat Azərbaycanın özünün neft-qaz kəməri projelərini başlamaq üçün milyardlarla dollar kreditə ehtiyacı var, əl açdıqları beynəlxalq maliyyə qurumları da dirsək göstəriblər. Bəlkə yandıqlarından edirlər? Ayrı məntiq izi görünmür. Düşünürlər kredit ala bilmiriksə, cəhənnəm olsun burda qalan beş-on milyon, onu da dağıdaq, sonrası Allah kərimdir...

Bayaq Monteneqronun adından qısaca yazdım, biz doğrudan bunun adına hər cür şey deyirik. Keçmiş Yuqoslaviyanın xarabalığı üzərindəki bu əldəqayırma dövlətciyin bizdə bir neçə adı işlənir. Biri ruslar kimi Çernoqoriya deyir, başqası türklər kimi Qaradağ. Monteneqro sözü də ingiliscə "qara dağ" anlamını verir, belə başa düşürəm bu xalqın özü də heç öz dilində dövlətinə bir ad tapa bilməyibdir.

Dildən söz düşmüşkən, təzəlikcə orta məktəb şagirdləri imtahan veriblər, çox biabırçı və gözlənilən nəticələr var. IX (bunu "ı iks" kimi oxumaq lazımdır - Z.H.) sinif şagirdləri arasında "Azərbaycan dili"ndən 20 911 nəfər (20,06 %), "Riyaziyyat"dan 26 438 nəfər (25,31 %) "2" qiyməti alıb. XI (bunu da "iks yanında dirək şəkli" kimi oxumaq lazımdır - məktəb o istiqamətə irəliləyir) sinif şagirdləri arasında isə Ana dili fənnindən 15 486 nəfər (18,34 %), Riyaziyyat fənnindən 16 038 nəfər (18.96 %) "2" qiyməti alıb. Bu imtahanlarda 104 476 nəfər IX sinif şagirdi, 84 589 nəfər XI sinif şagirdi iştirak edib.

Müəllimə dilənçi payı maaş verəndə, onu yaltaqlığa, seçki saxtakarlığına, yalana alət edib sındıranda, təhsili evdə bekar qalan məmur arvadlarının şuba nümayişi üçün müəllim işlədiyi moda salonuna çevirəndə başqa nəticə ola bilməzdi. Üstəlik, bütün məmur korpusunun, dövlət qurumlarının rusca oxuduğu, danışdığı mühitdə ana dilinə hansı hörmətdən danışırıq? Kimə lazımdır o dil? Anaya nə hörmət var ki, ana dilinə də hörmət olsun? Təsadüfi deyil ki, bu xəbər körpə ölümləri ilə eyni vaxta düşdü. Bir obyektdə anaların doğduqlarını doğrayıb öldürürlər, o biri obyektdə isə ana dilini.

Bu yaxında Azərbaycan prizmasından baxanda çox gülməli görünən araşdırma haqda oxumuşdum. İtaliyanın Paduya Universitetindən 3 iqtisadçı alim uzunmüddətli elmi araşdırma aparıblar, bu zaman Avropanın 9 ölkəsindən 6000 adamın həyatı öyrənilib. Nəticəyə görə, uşaq vaxtı çox kitab oxuyanların böyüyəndə maddi imkanları, gəlirləri az kitab oxuyanlara nisbətən 21 faiz çox olurmuş.

İndi sən bunu yazıq azərbaycanlılara necə deyəsən? Adamı kitabla öldürərlər. Çünki bizi idarə edənlər uzun illərdir ki, bir kitab arası açmayan şəxslərdir. Biz hələ onların dilindən bir bədii, elmi, cəhənnəmə, lap nağıl kitabının da adını eşitməmişik. Nələrinə gərəkdir? Onsuz da axırda hər şeyi dəyənək həll edir. Özləri oxumurlar, milləti də oxumağa qoymurlar ki, birdən ayılıb həqiqəti başa düşər.

Əsas odur pulu tanıyasan, ana dili nəyimizə lazımdır? Biz onu harda işlədəcəyik? Qəzet yox, kitab yox, müzakirə, diskussiya yox, elm yox, telekanal yox, söz azadlığı, toplaşma hüququ, mitinqlər yox... Bir şey ki, işlədilmir, o xarab olub dəyərdən düşməlidir. Xalqın uşağının bu dəfə dili tərəzidir.

# "İnsanlar narahatdır ki, birdən uşaqları zombiləşər, radikal cərəyanlara qoşular"

## Hacı İlqar İbrahimoğlu: "Əgər təkfirçilər Türkiyənin qapılarını döyürlərsə, bizim də qapılarımızın döyülməsi tamamilə mümkündür"



**Bu gün dünya müsəlmanları, eləcə də Azərbaycanın inanclı insanları mübarək Ramazan bayramını qeyd edir. Bugünlərdə Ramazan bayramının qeyd olunması ilə bağlı yaranan ixtilaf yenidən gündəmdir və həm mediada, həm də inanclılar arasında mübahisə mövzusuna çevrilib. Bundan başqa, müsəlman dünyasını narahat edən digər problemlər də var. Müqəddəs bayram ərəfəsində bu məsələlərin müzakirəsi üçün redaksiyamızın qonağı dəyərli ilahiyyatçımız Hacı İlqar İbrahimoğludur.**

*Onunla Ramazan ayı ilə bağlı məzhəb fərqlərindən, cəmiyyətdə dinə olan münasibətdən, bütün dünyanı silkələyən İŞİD təhlükəsindən və sairdən danışdıq. Söhbətdə "Yeni Müsavat" qəzetinin redaktoru Rauf Arifoğlu və bu sətirlərin müəllifi iştirak edir.*

**(əvvəli ötən sayımızda...)**

***- Azərbaycanda bu siyasət indi də varmı?***

- Hesab edirəm ki, bu nəzəriyyə hələ də yaşayır. Təəssüflər olsun ki, zahirdə deyilməsə də, bu düşüncə hələ də yaşamaqdadır.

***- Azərbaycanda hər iki məktəbə aid din adamları toplanıb bu təhlükəni müzakirə etmirlərmi?***

- Çox təəssüflər olsun ki, bəlli bir tarixi dönəmdə Azərbaycanda formalaşan əhli-sünnə var idi. Sonradan təkfirçi vəhhabilik onların içinə daxil olub və daha dominantlıq təşkil edib. Mən deyərdim ki, bəlli dönəmlərdə orada əsas mövqeləri ələ keçirməyə çalışıblar. Ona görə də bizim Azərbaycanımızın acı gerçəkliklərindən biri budur ki, tarixən təbii inkişaf edən bu iki məktəb və onlar arasındakı münasibət, səmimi qardaşlıq münasibətləri artıq əvvəlki kimi deyil, on illər öncəkindən daha fərqlidir.

***- Deməli, təəssüf ki, bu hələ mümkün deyil...***

- Biz bu sahədə çox çalışmalıyıq. Təəssüflər olsun ki, İraqda olan birgə yanaşma, İŞİD və təkfirçilərə qarşı birgə vuruşma Azərbaycanda yoxdur. Bəzən hətta bizim təkfirçi vəhhabiliyə qarşı olan bu müsahibəmizdən səmimi sünni qardaşlarımız narahat olurlar, bu sözləri özlərinə götürürlər. Lakin biz onları eyni yerdə görmürük, ayıra bilirik.

***- Belə başa düşdüm ki, təkfirçi vəhhabilik daha çox elə sünni cameəsinə zərər vurub.***

- Azərbaycanda mahiyyət etibarilə, sünni cameəsinə fövqəladə dərəcədə böyük zərər vurub. Təkcə Azərbaycanda yox, Çeçenistanda da eyni vəziyyət yaranıb. Çeçenistanda Dudayev dövrünün bir Çeçenistanı var idi, nəqşibəndlik məzhəbi, Şeyx Şamildən qalma bir ənənə var idi. Bu gün isə Çeçenistanda dominantlıq təkfirçi vəhhabiliyin əlindədir.

***- İnsanı dəhşətə gətirir. Bu o deməkdir ki, qarşısı alınmasa, bizi heç də yaxşı şeylər gözləmir...***



## "İnancımız nəinki insanı öldürməyi, hətta ağac kəsməyi, heyvanların incidilməsini də böyük günah sayır"

- Əgər Türkiyənin qapıları döyülürsə, bizim də qapılarımızın döyülməsi tamamilə mümkündür. O təhlükə praktiki olaraq heç də uzaqda deyil.

***- Bu sualın cavabını əslində biz də, əksər oxucularımız da bilirik. Lakin bilməyənlər üçün bu sualı cavablandırmağınızı istəyirəm. İslam dini intihar vasitəsilə terror törətməyə, canlı bomba olmağa necə baxır? Həmin insanların cənnətdə yeri varmı?***

- İslam dini, hansı inancdan olursa-olsun, dinc insanlara qarşı bu cür terror aktlarını törətməyi böyük cinayət və böyük günah sayır. Terrorçunun özünün ölüb-ölməməsinin heç bir fərqi yoxdur.

***- Canlı bombaları adətən cənnətlə müjdələyirlər. Gerçək İslama görə, onların cənnətə düşməsi mümkündürmü?***

## "İslam inancı insana siyasətlə maraqlanmamaq, ictimai problemlərlə maraqlanmamaq, toplumda baş verənlərlə maraqlanmamaq kimi bir lüks tanımır"

- Bu, özü-özünə bəlli olan bir mövzudur ki, dinc insanları öldürənlər cəhənnəmə gedəcək. İnancımız nəinki insanı öldürməyi, hətta ağac kəsməyi, heyvanların incidilməsini böyük günah bilir, o ki qaldı insan.

***- Bəs bu qədər oxumuş cəmiyyət necə imkan verdi ki, vəhhabilik Azərbaycanda ayaq tutsun? Bu necə oldu?***

- Azərbaycanda bunun müəyyən köklü səbəblərindən biri də bu oldu ki, hər kəs öz vicdanı ilə razılaşmaya getdi. O barədə ki, Azərbaycanda çoxluq şiə Cəfəri məzhəbidir, bəziləri bunun özünü də bir təhlükə kimi görürdülər.

***- Əsasən kimləri nəzərdə tutursunuz? Azərbaycanda müəyyən nüfuzu və təsirləri olan Qərb dairələrinimi, yoxsa hakimiyyət dairələrinimi və ya dini dairələrimi?***

- Ümumiyyətlə, Azərbaycan insanının məsuliyyət daşıyan elit təbəqəsi bu məsələdə vicdanı ilə razılaşmaya getdi ki, qoy bir balans olsun. Bu indinin məsələsi deyil, 10-15 il öncənin məsələsidir. Təəssüflər olsun ki, o balansın qurulmasında tərəzinin digər gözünə təkfirçi vəhhabiliyin qoyulmasına insanlar razı oldu və bu gün onun acısı yaşanır.

***- Hacı, siz bildirdiniz ki, bu boşluq maariflənmənin olmamasından yaranır. Bu gün Azərbaycan televiziyalarında keyfiyyətli dini verilişlərin olmamasının səbəbi nədir? Xüsusən Ramazan ayında qardaş Türkiyənin televiziyalarına baxsaq, xüsusi proqramlar yayımlanır, gündəlik olaraq dini verilişlər efirə verilir, insanlar maarifləndirilir. Azərbaycanda bu niyə yoxdur?***

- Bilirsinizmi, mən 16 ildir təhsildən vətənə dönmüşəm və xatırlayıram ki, 2001-2003-cü illərdə ölkədə İslam maarifçiliyi üçün böyük fürsətlər var idi. Ondan sonrakı illərdə bu, məhdudlaşdırılmağa başladı və hər növbəti il bir az da məhdudlaşdı. Son illərə gəldikdə isə mən hesab edirəm ki, son 5 ildə Azərbaycan telekanallarının hamısında bir senzura var. Mən bunu bütün məsuliyyətimlə deyirəm. Çox zaman dostlar soruşur ki, niyə televiziyalara dini verilişlərə çıxmırsan. Mən də bunu dedim ki, qoy bilsinlər təşəbbüs məndən irəli gəlmir, məni dəvət eləmirlər. Faktiki olaraq, bizim əvvəl maarifçilik üçün böyük imkanlarımız olurdu. Ekoloji mövzulardan, suyun israfından tutmuş dini məsələlərə qədər... Görünən odur ki, indi ölkənin aparıcı ilahiyyatçılarına bir məhdudiyyət var və bu ümumi mövcuddur. İstisna hallar da var və lakin bu istisna hallar çox azdır. Çox zaman da şou xarakterli verilişlərin içinə salınır deyə, maarifçilik yox, başqa təhriklər işə düşür. İstisna hallar çox azdır. Mən düşünürəm ki, problem təkcə dinlə bağlı deyil. Ümumiyyətlə, telekanalların özünün sərbəst və müstəqil olmaması ilə bağlıdır. Çünki istənilən azad telekanal istəyər ki, tamaşaçı kütləsi olsun, tamaşaçı kütləsi üçün də rəqabət var. Azərbaycanda problem daha köklüdür, ümumiyyətlə, medianın azadlığına, telekanalların sərbəstliyi məsələsinə qayıdan bir problemdir. Hazırda bu məsələlər sosial şəbəkələr vasitəsilə əvəz olunur. Bizim facebook-da mənəviyyatla bağlı "dəyərlər.org" səhifəmiz var. Çox təəccüblü olsa da, o səhifədə 250 min nəfərə yaxın insan əhatə olunur. Xüsusən Ramazan ayında bu say artıb. Dəyərlər.org-un özünə gəldikdə biz Ramazan ayının cədvəli ilə bağlı marağı hiss elədik, ay daxil olandan 100 minə yaxın insan daxil olub o cədvələ baxıb. Bu, insanların maraq göstəriciləridir. İnsanların marağı var və o maraqlarını qismən internet vasitəsilə ödəyirlər.

***- Razılaşsaq ki, Azərbaycan televiziyaları azad deyil və müəyyən dairələr tərəfindən idarə olunur, o zaman radikal cərəyanlar bu qədər can alarkən, gerçək dindən həmin dairələr niyə qorxur? Cəmiyyətdə gerçək dini təbliğata qarşı bir qorxu varmı?***

- Ümumiyyətlə, bu təkcə dinlə bağlı deyil. Bizim keyfiyyətli təhsilimiz, keyfiyyətli səhiyyəmiz, keyfiyyətli maarifçiliyimiz də yoxdur. Bu, toplumun ümumi problemidir. Hazırda bizim keyfiyyətli təhsil və səhiyyə ilə bağlı necə problemimiz varsa, keyfiyyətli dini maarifçiliklə bağlı da o cür problemimiz var. Hər bir valideyn istər ki, övladı gerçək dini biliklərə yiyələnsin. Mən nə qədər valideyn tanıyıram ki, xahiş edirlər oturun övladımla bir çay için, görün övladım radikallara qoşulmayıb ki... O qədər insan müraciət edir ki... İnsanlar dinə, inanca, mənəviyyata qarşı deyil. İnsanlar narahatdır ki, birdən uşaqları zombiləşər, birdən uşaqları fərqli cərəyanlara qoşular. O baxımdan bu bir sistem böhranıdır. Necə ki, təhsildə xırda detalların düzəlməsi ilə problem həllini tapmır, səhiyyədə problemlər bitmək bilmir, din və inanc məsələlərində də belədir. Bu, toplumun ümumi problemidir. Toplumun ümumi probleminin həlli də, sağlam rəqabətdən, sağlam seçimdən, sağlam nəzarətdən, toplumdan gələn əks-əlaqə və əks-nəzarətdən keçir. Bunlar olduğu zaman təbii bir tənzimlənmə gedir. Necə ki, bir qəzetin yaxşı çıxması üçün azad və demokratik ab-havanın olması, bazarın olması mühümdürsə, təhsilin də, səhiyyənin də, o cümlədən dini maarifçiliyin də buna ehtiyacı var. İnsanların bu mövzuya tələbatı isə fövqəladədir.

## "Nə qədər valideynlər var ki, xahiş edirlər oturun, övladımla bir çay için, görün radikallara qoşulmayıb ki... İnsanlar dinə, inanca, mənəviyyata qarşı deyil"

***- Siz təhsil ocaqlarında dini dərslərin keçirilməsinin tərəfdarısınızmı? Hansı mərhələdən sonra?***

- Maraqlı sualdır. Birmənalı cavab verə bilməyəcəyəm. Həm hə, həm də yox. Tərəfdarıyam ona görə ki, istənilən halda insanların maariflənməsi çox önəmlidir. Ancaq o cür təhsil ki, bu gün məktəblərdə verilir və insanların inancı, ülvi məsələləri ilə bağlı da o cür veriləcək, bu sual doğurur. O dərsləri kim keçəcək, necə keçəcək? Bu sualların cavabı olmadığı üçün birmənalı şəkildə bu suala müsbət cavab verə bilmirəm. Eyni sual ailə dərsi ilə də bağlıdır. Uşaqlar bu dərsləri keçməlidirlər ki, gələcəkdə ailə ilə bağlı məlumatları olsun. Ailə büdcəsi necə təşkil olunmalıdır və sair məsələlərlə bağlı öyrənsinlər. Ancaq məlum deyil ki, bu dərsləri kim və necə keçəcək. Dini dərslərin, mənəviyyat dərslərinin də necə keçiriləcəyi bəlli deyil. Tələbələrimdən biri danışır ki, onlar universitetdə əxlaq dərsi keçəndə müəllimdən soruşub ki, biz hansı əxlaqdan danışırıq, yemək yeyərkən olan etiketdən danışırıq, yoxsa mənəvi qaydalardan. Müəllim isə cavab verib ki, sən yaman çox sual verirsən və tələbəyə həmin imtahanda aşağı qiymət yazıb. Bu mövzuda dərsləri bu cür insanlar keçəcəksə, heç bir nəticəsi olmayacaq. Yadınızdadırsa, biz məktəb illərində ingilis dili müəllimimiz yaxşı insan idisə, ingilis dilini yaxşı oxuyurduq, müəllimimiz yaxşı insan olmayanda həmin fənni də oxumağa can atmırdıq. Bu mövzular indi də çox aktualdır. Ona görə də mən düşünürəm ki, xüsusən təhsil sahəsində köklü islahatlar olmasa bu mövzuların da təhsildə tətbiqinin yaxşı nəticələrə gətirib çıxaracağını demək çətindir.

***- Hacı, bir neçə dəfə siz ölkədə yaradılan ümumi siyasi bloklarda təmsil olunmusunuz. Ancaq son vaxtlar heç birində təmsil olunmursunuz. Bu bir qərardır, yoxsa təmsil olunmağınız üçün yer yoxdur?***

- (Gülür). Maraqlı sualdır. Sonuncu dəfə 2010-cu ildə parlament seçkilərindən sonrakı proseslərlə bağlı olan demokratik düşərgədə təmsil olunmuşam. Ondan sonrakı proseslərdə hesab etmişəm ki, hansısa bloklarda, siyasi düşərgələrdə təmsil olunmağıma ehtiyac yoxdur. Hesab edirəm ki, bu gün Azərbaycanın indiki şəraitində daha çox maarifçilik və köklü maariflənmə istiqamətində topluma fayda verməyimiz daha önəmlidir. Səbəblər də az deyil. Fikrimcə, ölkədə siyasət çalışması, demokratikləşmə çalışması, ictimai fəaliyyət və media çalışması fürsətləri çox daralıb. Bu gün Azərbaycan şəraitində ləyaqətli insan qalmaq və peşəkar olmaq ən önəmli məsələdir. Ən önəmli məsələ ləyaqətini qorumaq və məşğul olduğun sahədə insanlara keyfiyyətli xidmət göstərməkdir. Bundan böyük bir missiya yoxdur. Bundan daha yuxarısı üçün siyasi və demokratik imkanlar yoxdur.

***- Ancaq sizin siyasi iddianız var...***

- Siyasi iddiamız var, ya yox mövzusu mənim üçün bir qədər fəlsəfi məsələdir. Allah bəndəsi olduğum üçün öz qarşımda, Rəbbim qarşısında, toplum qarşısında vəzifələrim olduğu üçün təbii ki, toplumda baş verən bütün məsələlərdə də öz üzərimə düşənləri yerinə yetirməyə çalışıram. Hesab edirəm ki, hər bir müsəlmanın, hər bir inanclı insanın siyasi məsələlərlə məşğul olması, bu mövzularda fəal olması onun mənəvi borcudur. Ona görə də İslam inancı insana siyasətlə maraqlanmamaq, ictimai problemlərlə maraqlanmamaq, toplumda baş verənlərlə maraqlanmamaq kimi bir lüks tanımır. İnancımız zəruri edir ki, inanclı insan vicdanı qarşısında toplumda baş verənlərə səssiz qalmasın. Məsələn, Qarabağla bağlı hadisələr baş verirsə, inancımız bir nömrəli vəzifə hesab edir ki, torpaq uğrunda lazım olsa gedib şəhid olmalısan. Yəni bizim Allah qarşısında vəzifələrimiz var. Onlardan biri də topluma xidmət eləməkdir. O xidmət müəllim olaraq da mümkündür, küçədə təmizlik işi görməklə də mümkündür, siyasi fəaliyyətlə də mümkündür. Hesab edirəm ki, mən və digər inanclı insanlar həyatın istənilən müstəvilərində fəal olmalıyıq.

❑ Söhbəti qələmə aldı: Nərgiz LİFTİYEVA
Fotolar: Məğrur MƏRDİNDİR





## "Bu gün ölkədə siyasət çalışması, demokratikləşmə çalışması, ictimai fəaliyyət və media çalışması üçün fürsətlər çox daralıb"